# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

23
YANVAR
2020-ci il
№ 11 (4142)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 3 ■

# PREZİDENT ƏLİYEVİN DAVOSDAN YAYDIĞI TEZİS - DAXİLİ VƏ XARİCİ İNVESTİSİYALAR ÜÇÜN PROQNOZLAŞDIRILA BİLƏN SİYASƏT NƏDİR...

Neftə görə rus-belarus münasibətləri gərginlikdə, Qazaxıstana qadağa qoyuldu, İlham Əliyevin unikal bəyanatı...
■ səh. 8 ■

Azərbaycan - Davos Forumu əməkdaşlığında yeni səhifə açıldı - forumun Azərbaycanda regional ofisi...
■ səh. 3 ■

Vilayət Eyvazov əməkdaşlara yol qayda pozuntularının kökünü kəsməyə yönəlik maraqlı tövsiyə verdi
■ səh. 4 ■

Bu dairədə kimin deputat olmaq şansı getdikcə durulur...
■ səh. 6 ■

Azərbaycanın tranzit imkanlarına beynəlxalq maraq artır
■ səh. 10 ■

Bank sektorumuzda zəif halqalar - maliyyə sektorumuz üçün təhdid mənbəyi...
■ səh. 11 ■

Yol qəzalarında piyada ölümlərinin azalmasının həlledici səbəbi - keçid olmayan yerlərdə nəzarətin gücləndirilməsi...
■ səh. 14 ■

Bir vaxtlar Azərbaycandan Türkiyəyə işləməyə gedirdilər, indi əksinə proses başlayıb...
■ səh. 13 ■



■ səh. 9 ■

## Azərbaycan sərhədçiləri Qazax-Ağstafa istiqamətində düşmənin psixoloji üstünlük qazanmaq səylərini qırdı - 2018-ci ilin sonlarından gedən proses...



## Lukaşenkonun ümidi yenə Azərbaycana qaldı
■ səh. 7 ■

Ermənilər «Aşıq Qərib»i və hətta «Koroğlu»nu mənimsəmək üçün hərəkətə keçdilər...
■ səh. 12 ■



Putin əziyyət çəkib İsrailə gedir, İsrail isə ermənilərin faşisti qəhrəmanlaşdırmasına hələ münasibət bildirməyib...
■ səh. 8 ■

■ səh. 2 ■
DİN-in Kollegiyası Azərbaycandakı kriminogen durumun və ictimai asayişin tam nəzarətdə olduğunu nümayiş etdirdi



■ səh. 5 ■
"Azərbaycan: Qırmızı qərənfilləri xatırlayır və gələcəyə baxır"...



■ səh. 5 ■
Hay-küylə seçkiyə qatılıb, sonra sakitcə namizədliyi geri çəkib gedirlər - qeyri-ciddi hərəkətlər bununla bitirmi...



■ səh. 4 ■
Azərbaycanda da polisə qanunla vətəndaşların telefon danışıqlarını gizli dinləmək səlahiyyəti verilsə...



■ səh. 13 ■
"AtaBank"da nə baş verir - əmanətçilərin problemini araşdırdıq...



# Azərbaycan Prezidentinin Davosda Polşa və Monqolustan prezidentləri ilə görüşü olub



**Prezident İlham Əliyev yanvarın 22-də Davosda Polşa Prezidenti Andjey Duda ilə görüşüb.**

Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişafı məsələləri müzakirə olunub, neft-qaz sektorunda əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin regionda və dünyada mövcud geosiyasi vəziyyət haqqında fikir mübadiləsi aparılıb.

Söhbət zamanı bu ilin iyun ayında Tallində keçiriləcək Üç Dəniz Təşəbbüsündə Azərbaycanın da iştirak etməsinin əhəmiyyəti vurğulanıb, Vışeqrad Qrupu və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri müzakirə olunub.

Yanvarın 22-də Prezident İlham Əliyev Davosda Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə də görüşüb.

Görüşdə Azərbaycanla Monqolustan arasında əlaqələrin daha da dərinləşdirilməsi barədə fikir mübadiləsi aparılıb, kənd təsərrüfatı sahəsində, xüsusilə heyvandarlıq sektorunda geniş əməkdaşlıq imkanlarının olduğu bildirilib, mis və qızıl mədənləri sənayesi sektorunda investisiya imkanları müzakirə edilib.

Söhbət zamanı hazırda monqolustanlı tələbələrin Azərbaycanın universitetlərində təhsil aldıqları qeyd olunub.

# DİN-in Kollegiyası Azərbaycandakı kriminogen durumun və ictimai asayişin tam nəzarətdə olduğunu nümayiş etdirdi

**Yanvarın 22-də Daxili İşlər Nazirliyində 2019-cu ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hüquq-mühafizə siyasəti sayəsində daxili işlər orqanlarında da fəaliyyətin təkmilləşdirilməsi, əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Asayişin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının qorunması və digər sahələrdə qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası tam təmin edilib. Ölkəmiz cinayətkarlıqla mübarizənin nəticələrinə görə, ötən il də MDB və Avropa məkanında öncül mövqedə olub, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı sabit qalaraq 265 fakt təşkil edib.

Hesabat məruzəsi ilə çıxış edən Daxili işlər naziri deyib ki, 2019-cu ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.672 cinayət qeydə alınıb. Onların 92 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olub. Bu cinayətlərin 89 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

2018-ci illə müqayisədə qəsdən adam öldürmələr 5,4, adam öldürməyə cəhdlər 23,4, mülkiyyət əleyhinə olan cinayətlər 12, o cümlədən soyğunçuluqlar 3,9, quldurluqlar 2, dələduzluqlar 24,3, hədə-qorxu ilə tələb etmələr 25, avtonəqliyyat vasitəsinin qaçırılması faktları 15,5, habelə xuliqanlıqlar 13,4, ictimai yerlərdə baş verən cinayətlər 26, yetkinlik yaşına çatmayanların cinayətləri 30,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən cinayətlər 1,3 faiz azalıb.

Eyni zamanda, ağır və xüsusilə ağır cinayətlərin 87, şəxsiyyət əleyhinə olanların 97, onlardan qəsdən adam öldürmələrin 95, adam öldürməyə cəhdlərin 98, qəsdən sağlamlığa ağır zərər vurmaların 94, xuliqanlıqların 93, mülkiyyət əleyhinə olan cinayətlərin 73,4 faizinin, onlardan oğurluqların 65,4, dələduzluqların 94, soyğunçuluqların 84, quldurluqların 86, hədə-qorxu ilə tələb etmələrin 91, avtonəqliyyat vasitəsini qaçırmaların 81 faizinin, eləcə də prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 329 cinayətin açılması təmin edilib.

Məruzəçi "102" Xidmətinə daxil olan məlumatlar üzrə görülmüş operativ cavab tədbirləri ilə 2039 cinayətin "isti izlərlə" açıldığını, 7.556 hüquqazidd əməlin qarşısının alındığını, "Təhlükəsiz şəhər" sisteminin imkanları ilə 575 cinayətin açıldığını vurğulayıb. Həmçinin, təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb edilməsi sahəsində görülmüş tədbirlərlə 3608 nəfərin tutulduğunu diqqətə çatdırıb.

Nazir qeyd edib ki, mütəşəkkil cinayətkarlıqla mübarizə də məqsədyönlü şəkildə həyata keçirilib və hesabat ilində 818 cinayətkar qrup zərərsizləşdirilib. Qeyri-leqal dövriyyədən bütövlükdə 1 ton 231 kiloqram narkotik vasitə çıxarılıb. Qeyri-qanuni kultivasiya edilən 127 tona yaxın çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 31.539 cinayət işindən 81 faizinin istintaqı daxili işlər orqanları müstəntiqləri tərəfindən aparılıb və vətəndaşlara dəymiş 52 milyon manatdan çox maddi ziyanın 92,7 faizi məhz istintaq zamanı ödətdirilib.

General-polkovnik Vilayət Eyvazov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu proqram vəzifələrin icrası daim nəzarətdə saxlanılıb və tam yerinə yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 4405, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 965 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həll olunub.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin müdiri Fuad Ələsgərov çıxış edərək, ölkəmizdə hüquqi demokratik islahatların, böyük infrastruktur layihələrinin, sosial yönümlü proqramların uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Respublikada ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, eyni zamanda, aidiyyəti Dövlət Proqramlarından, Milli Fəaliyyət Planlarından irəli gələn vəzifələrin ardıcıllıqla icra olunduğunu, cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini sahələrində uğurlar qazanıldığını qeyd edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyəti, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyi nəzərə çatdırılıb.

Məruzə ətrafında çıxış edən Naxçıvan MR-in daxili işlər naziri Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Əbülfət Rzayev və başqaları hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran Daxili İşlər naziri Vilayət Eyvazov 2019-cu ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.



O da qeyd olunub ki, 2020-ci ildə qarşıda çox mühüm vəzifələr durur. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə edilmiş müsbət nəticələr inkişaf etdirilməli, şəxsi heyət daha böyük əzmlə çalışmalı, peşəkarlığı yüksəltməlidir.

Cari ildə ölkəmizdə keçiriləcək respublika və beynəlxalq əhəmiyyətli tədbirlərlə bağlı bütün təşkilati işlər vaxtında və yüksək səviyyədə yerinə yetirilməlidir.

Sonda general-polkovnik V.Eyvazov nazirlik sistemində maddi texniki təminatın, xidmət şəraitinin daha da yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi üçün dövlət tərəfindən hərtərəfli köməklik göstərildiyini məmnunluqla qeyd edərək, bu ali diqqətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib, əmin edib ki, qanunla müəyyən olunmuş vəzifələr bundan sonra da tam yerinə yetiriləcək.

**Prezident İlham Əliyev Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşüb. Ölkə başçısı Azərbaycanda son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd edib.**

*"...qeyri-neft sektorunun inkişafı baxımından bunun əhəmiyyəti böyükdür"*

# Prezident Əliyevin Davosdan yaydığı tezis - daxili və xarici investisiyalar üçün proqnozlaşdırıla bilən siyasət nədir...

Prezident ölkədə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğulayıb.

Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart dövlət başçısı tərəfindən son illərdə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə edib. Bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin, şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğulayıb. Baş icraçı direktor bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd edib.

Bütün bu deyilənlərin fonunda, xarici və yerli investorlar üçün proqnozlaşdırıla bilən siyasət nə deməkdir və bunun əhəmiyyəti nədən ibarətdir?

Sözügedən məsələyə aydınıq gətirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, burada söhbət differensial qaydada investorlarla bağlı tətbiq olunacaq yumşaq siyasətdən gedir: "Yeni investorlarla bağlı elastik siyasətin həyata keçiriləcəyi gözlənir. Məsələn, hər hansı bir qanunun, qərarın tələbləri müəyyən olunubsa, amma dövrün tələbləri ilə uzlaşmırsa, sözügedən qanun təkmilləşdiriləcək. Ona görə də ölkə başçısı çox incəliklə bu məsələyə toxunub. Düşünürəm ki, ümumiyyətlə, gələcəkdə bu qəbildən olan məsələlərdə daha böyük irəliləyişlər olacaq. İnvestorlar üçün vergi, gömrük və digər sahələrdə daha liberal şərait yaradılacaq. Nəticədə həm yerli, həm də xarici investorlar bu imkanlardan maksimum yararlanacaqlar. Bunun əhəmiyyəti böyük olacaq. Nəzərə almaq lazımdır ki, müasir dövrdə hər şey sürətlə dəyişir. Dünya bazarlarında şərtlər, imkanlar dəyişir. Sürətli inkişaf bu sahələrə də təsirsiz ötüşmür. Söhbət ondan gedir ki, investorlarla bağlı hər hansı qərar verildikdə bunu şablon formasında götürüb daim tətbiq etmək olmaz. Bu nöqteyi-nəzərdən müvafiq qurumlar lazım gəldikdə qanunun effektivliyini artırmaq üçün onu təkmilləşdirməlidirlər. Bu kimi tədbirlərin sayəsində Azərbaycan iqtisadiyyatına davamlı sərmayələrin qoyuluşu təmin olunacaq. İqtisadiyyatın çoxşaxəli sektorları inkişaf edəcək. Məxsusən də qeyri-neft sektorunun inkişafı baxımından bunun əhəmiyyəti böyükdür".

## *Fuad İbrahimov: "Burada söhbət differensial qaydada investorlarla bağlı tətbiq olunacaq yumşaq siyasətdən gedir"*




*Vidadi ORDAHALLI*

**Azərbaycanda Dünya İqtisadi Forumunun afilə edilmiş regional mərkəzi yaradılır. Bununla bağlı müvafiq niyyət protokolu Azərbaycan Prezidenti İlham Əliyevlə Dünya İqtisadi Forumunun prezidenti Borge Brendenin görüşü zamanı imzalanıb.**

*"Digər tərəfdən, bu kimi beynəlxalq təşkilatların Azərbaycanda fəaliyyət göstərməsi xüsusilə qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətlidir"*

# Azərbaycan - Davos Forumu əməkdaşlığında yeni səhifə açıldı - forumun Azərbaycanda regional ofisi...

Sənədi Prezident İlham Əliyev və forumun prezidenti Borge Brende imzalayıblar. Dövlət başçısı qeyd edib ki, biz Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr arasında olmağımızla çox fəxr edirik: "Bu, həqiqətən də bizim əlaqələrimizdə yeni səhifədir. Ümidvaram ki, gələcək keçmiş qədər uğurlu olacaq".

Görüşdə o da vurğulanıb ki, bu cür mərkəzlər çox məhdud sayda ölkələrdə yaradılır və onların əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir.

Bütün hallarda, Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması mühüm hadisədir. Bu cür mərkəzlərin çox məhdud sayda ölkələrdə yaradıldığını nəzərə alsaq, belə bir mərkəzin Azərbaycanda yaradılması nəyin göstəricisidir?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənov buna bir neçə aspektdən yanaşdı: "Məsələ ondadır ki, bu kimi beynəlxalq təşkilatların Azərbaycanda fəaliyyət göstərməsi xüsusilə qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətlidir. Bu, müəyyən qədər xarici investisiyaya əlavə çıxış imkanları yaradır. Digər tərəfdən, adətən, bu kimi institutlar mütəmadi olaraq real sektorun qiymətləndirilməsi, iqtisadi vəziyyətin dəyərləndirilməsi, həmçinin, mövcud strateji inkişaf proqramları ilə bağlı həm araşdırmalar, tədqiqatlar aparırlar, həm də tövsiyələr hazırlayırlar. Ona görə də bu təşkilatın akkreditasiya olunmuş nümayəndəliyinin Azərbaycanda yerləşməsi müsbət haldır.

**Bunun sayəsində Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı keyfiyyətli tövsiyələr hazırlana bilər. Hesab edirəm ki, bu və digər baxımdan Dünya İqtisadi Forumunun Azərbaycanda regional mərkəzinin yaradılması müsbət əhəmiyyətə malikdir".**

## *Rəşad Həsənov: "Bu, müəyyən qədər xarici investisiyaya əlavə çıxış imkanları yaradır"*



*Vidadi ORDAHALLI*

**Xəbər verildiyi kimi, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Baş Dövlət Yol Polisi İdarəsində 2019-cu ildə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində görülən işlər və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

# Vilayət Eyvazov əməkdaşlara yol qayda pozuntularının kökünü kəsməyə yönəlik maraqlı tövsiyə verdi

***Elməddin Muradlı:** "...cənab nazirin qeyd etdiyi kimi, yanaşma dəyişməlidir"*




Müşavirədə Daxili İşlər naziri Vilayət Eyvazov bir sıra məsələlərə toxunub. Nazir Dövlət Yol Polisi Xidmətinin ötənilki fəaliyyətinin nəticələrini ümumən müsbət qiymətləndirib, qarşıda çox mühüm vəzifələrin durduğunu bildirib, onların həlli üçün konkret tapşırıq və tövsiyələrini verib. O, hər bir əməkdaşın vəzifə borcunu layiqincə yerinə yetirməsi, fəaliyyətin bütün sahələrində işlərin uğurlu getməsi üçün peşəkarlığın ən vacib amil olduğunu xatırladıb, eyni zamanda, əldə edilmiş müsbət nəticələrdən arxayınlaşmamağı, daha məsuliyyətlə xidmət aparılmasını tövsiyə edib.

Bununla belə, general-polkovnik V.Eyvazov başlıca vəzifənin hərəkət iştirakçılarını cəzalandırmaq deyil, yol hərəkətinin təhlükəsizliyini və tənzimlənməsini təmin etmək, insanların həyat və sağlamlığının avtomobil qəzalarından qorunması kimi vacib və şərəfli vəzifələrin icrasını həyata keçirmək, yol hərəkəti qaydalarının kobudcasına pozulması hallarının qarşısını almaq olduğunu bildirib.

Nazirin sözügedən məsələyə yanaşması maraqlı fikirdir. O mənada ki, təkcə sürücüləri cəzalandırmaqla yol hərəkətinin təhlükəsizliyini təmin etmək mümkün deyil. Onsuz da bununla bağlı qanuna uyğun olaraq cəzalar verilir. O baxımdan təkcə bu yetərli deyil. Elə etmək lazımdır ki, yol hərəkətinin təhlükəsizliyi ilə bağlı nizam-intizama, qayda-qanuna bütün tərəflər - istər sürücülər, istərsə də piyadalar əməl etsin. Belə olarsa, o zaman həm qəzaların sayı, həm də bu hadisələr zamanı ölən və xəsarət alanların sayı azalacaq.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən yol hərəkəti üzrə ekspert Elməddin Muradlının sözlərinə görə, nazirin məsələyə yanaşması tamamilə reallığı özündə əks etdirir: "Həqiqətən də təkcə sürücülərin cərimələnməsi vəziyyətdən çıxış yolu deyil.

*"Başlıca olaraq hərəkətin təşkili və təhlükəsizliyi yüksək səviyyədə təmin edilməlidir"*

Ona görə də başlıca olaraq hərəkətin təşkili və təhlükəsizliyi yüksək səviyyədə təmin edilməlidir. Ondan sonra buna qarşı çıxanları cəzalandırmaq lazımdır. Yəni, ilk növbədə, normal şərait yaratmaq, təhlükəsiz mühit formalaşdırmaq lazımdır. Bununla belə, savadlı sürücü formalaşdırmaq lazımdır. Bütün bunlardan sonra sürücülərdən qaydaları tələb etmək olar. Bu gün təəssüflər olsun ki, bizdə yol infrastrukturu tamam başqa vəziyyətdədir. Avtomobil parkımız normal vəziyyətdə deyil. Sürücü kontingenti çox da savadlı deyil. Əksər sürücü yol hərəkəti qaydalarını qismən bilir. Bəzi qaydaları, sadəcə, əzbərləyiblər, mahiyyətini elə də dərk etmirlər. Sürücülərin peşəkarlıq səviyyəsi ilə bağlı müəyyən addımlar atılmalı, işlər görülməlidir. Doğrudan da, cənab nazirin qeyd etdiyi kimi, yanaşma dəyişməlidir. Yəni təkcə cərimə tətbiq etməklə problem həll edilməməlidir. Problem kökündən aradan qaldırılmalıdır. Təhlükəsiz mühitin yaradılması deyilərkən söhbət bundan gedir. Əsas məqsəd və məram bundan ibarət olmalıdır. Problem varsa, onu aradan qaldırmaq lazımdır. Yoxsa, problemdən istifadə edib cərimə tətbiq etmək çıxış yolu deyil. O üzdən, bununla bağlı normal şərait olmalıdır. Eyni zamanda, bu məsələ piyada və sərnişinlərə də aiddir. Ümumilikdə, hərəkət təşkilatçılığı yaxşı və yüksək olmalıdır. Son illər DİN bu istiqamətdə bir sıra addımlar atır. DYP əməkdaşları əsasən hərəkəti tənzimləməklə məşğuldurlar. Ümid edirəm ki, bu istiqamətdə işlər yoluna düşəcək".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, bəzi ölkələrdə polisə qanunla vətəndaşların telefon danışığını gizlin dinləmək hüququ verilir. Artıq bir neçə ölkədə polis vətəndaşa xəbərdarlıq etmədən və məhkəmə qərarı olmadan vətəndaşın telefonunu izləyə, danışıqları dinləyə bilər.**

# Azərbaycanda da polisə qanunla vətəndaşların telefon danışıqlarını gizli dinləmək səlahiyyəti verilsə...

***Əliməmməd Nuriyev:** "Məhkəmənin qərarı olmadan, müvafiq sanksiya verilmədən vətəndaşların telefon danışıqlarının gizli dinlənilməsi böyük özbaşınalığa gətirib çıxara bilər"*

***Şəmsəddin Əliyev:** "...təhlükəsizliyin təmin edilməsi baxımından çox vacibdir"*



Azərbaycanda isə polisin ondan xəbərsiz vətəndaşın telefon danışıqlarını dinləməsi qanunla yasaqdır. Azərbaycanda da polisə belə bir səlahiyyət verilə bilərmi?

Bəzi ekspertlər qeyd edirlər ki, Azərbaycanda da polisə belə bir səlahiyyət verilsə yaxşı olar. Onlar bunu ictimai asayiş və ictimai qaydanın təminatının əsas ağırlığının polisin üstündə olması ilə əsaslandırırlar. Polisin mütəmadi olaraq cəmiyyətlə, ictimaiyyətlə əlaqədə, ünsiyyətdə olduğunu deyən ekspertlər hesab edirlər ki, polis bu vasitə ilə baş verə biləcək təhlükənin əvvəlcədən qarşısını almaq üçün təhlükəsizlik tədbirləri görə bilər.

Tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, məhkəmə qərarı olmadan polisə vətəndaşların telefon danışıqlarını gizlin izləməsi səlahiyyətinin verilməsi mənfi nəticə verə bilər. "Əməliyyat-axtarış məsələsi ilə bağlı qanun var, burada polisin vəzifə və funksiyaları müəyyən edilib. Hesab edirəm ki, məhkəmənin qərarı olmadan, müvafiq sanksiya verilmədən vətəndaşların telefon danışıqlarının gizlin dinlənilməsi böyük özbaşınalığa gətirib çıxara bilər. Xüsusi xidmət orqanlarında, polisdə bu səlahiyyətlərin geniş səviyyədə olması suiistifadə halları yaradar. Fikrimcə, məhkəmənin qərarı olmadan polisə vətəndaşın telefon danışıqlarını dinləmək səlahiyyətləri verilməməlidir. Bu kimi hallar məhkəmənin qərarı ilə müəyyənləşdirilməlidir. Bəzi hallarda, məsələn, əgər terror təhlükəsi varsa, bununla bağlı yetərincə əsaslar mövcuddursa, operativ dinləmələr barədə qərar qəbul etməklə və məhkəmənin qərarı ilə bu dinlənmə həyata keçirilməlidir. Bir çox ölkədə polis tərəfindən vətəndaşların telefon danışıqlarının gizlin izlənilməsinin, dinlənilməsinin çox pis nəticələr verdiyinin şahidi olmuşuq. Polisə vətəndaşın telefonunu gizlin dinləmək səlahiyyətlərinin verilməsi totalitar cəmiyyətlərə xasdır. Bu, insan hüquq və azadlıqlarının kəskin şəkildə məhdudlaşdırılmasıdır, konstitusion hüququn, toxunulmazlıq hüququnun pozulmasıdır. Bu kimi hallara yol vermək olmaz. Əlbəttə, gördüm, bəzi ölkələrdə polisə vətəndaşların telefon danışıqlarını gizlin dinləmək hüququ verilib. Bu, demokratik cəmiyyət üçün yararlı deyil".

Ə.Nuriyev, həmçinin, qeyd etdi ki, istənilən qanunun qəbul edilməsi cəmiyyətin, vətəndaşların maraqlarına tam uyğun olmalıdır. Onun sözlərinə görə, əgər hansısa bir əməllə, vətənə xəyanət, eləcə də ağır cinayətlərin edilməsi, ona cəhd və hazırlıqla bağlı şübhələr varsa, məhkəməyə müraciət etməklə polis vətəndaşın telefonunu dinləyə bilər. "Yoxsa, polisin istədiyi vaxt istədiyi vətəndaşın xəttinə daxil olub onun danışığını gizli yolla dinləməsi yolverilməzdir" - deyə Ə.Nuriyev qeyd etdi.

"Polisə Dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyev isə əksini düşünür. Həmkarından fərqli olaraq, Ş.Əliyev hesab edir ki, Azərbaycan polisinə gizlin şəkildə vətəndaşların telefon danşıqlarını dinləmək səlahiyyəti verilməlidir. "Azərbaycanda da polisə vətəndaşların telefon danışıqlarını gizli şəkildə dinləmək səlahiyyətinin verilməsi təhlükəsizliyin təmin edilməsi baxımından çox vacibdir. Gizlin deyil ki, bu gün həm sosial şəbəkələrdə, həm də telefon danışıqlarında insanlar dövlət strukturlarının əleyhinə, insanların təhlükəsizliyini təmin edən qurumlarla bağlı xoşagəlməz fikirlər söyləyirlər. Hətta polisin və digər qurumların ünvanına da mənfi ifadələr işlədirlər. Sirr deyil ki, bəzi cinayət xarakterli söhbətlər də telefon vasitəsilə həyata keçirilir. İnsanların təhlükəsizliyinin təmin etmək polisin əsas vəzifəsidir. Polis haqqında qanunda, eləcə də digər qanunvericilik sənədlərində polisin səlahiyyətləri qeyd edilib. Hesab edirəm ki, polisə məhkəmənin qərarı olmadan belə vətəndaşların telefonlarını istədiyi vaxt dinləmək səlahiyyəti verilməlidir.

Günün 24 saatı vətəndaşların xidmətində duran, onların təhlükəsizliyini qoruyan və hər zaman operativ əməliyyatlar keçirən polisə hansısa təhlükəli bir vətəndaşın, yaxud cinayətkar qrupun telefon danışığını izləmək üçün məhkəmənin qərarını gözləmək düzgün deyil. Polisə vətəndaşın telefonunu dinləmək səlahiyyətinin verilməsi cinayətkarlıqla mübarizə sahəsində çox böyük effekt verər" - deyə Ş.Əliyev vurğuladı.

***İradə SARIYEVA***

**Hikmət Hacıyev Belçikaya səfər çərçivəsində Avropanın nüfuzlu "EURACTIV" xəbər portalına telemüsahibə verib.**

# "Azərbaycan: Qırmızı qərənfilləri xatırlayır və gələcəyə baxır"...



**"Azərbaycan: Qırmızı qərənfilləri xatırlayır və gələcəyə baxır" başlıqlı müsahibədən bəzi hissələri təqdim edirik:**

Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri və Avropa İttifaqının münaqişə ilə bağlı mövqeyi barədə Hikmət Hacıyev bildirib:"Mənim Prezidentim tərəfindən də deyildiyi kimi, təəssüf ki, ötən il münaqişənin həlli baxımından itirilmiş il oldu. Biz bu münaqişənin həlli üçün hər hansı bir xüsusi hərəkət görə bilmirik, əksinə, Ermənistanın destruktiv siyasətin şahidi olduq. Danışıqlar prosesinin artıq təsis olunmuş formatının mövcudluğuna baxmayaraq, Ermənistan tərəfi bu formatı dəyişməyə cəhd etdi. Ermənistan və Azərbaycan bu münaqişənin tərəfləridir, ATƏT-in Minsk Qrupunun həmsədrləri vasitəçilərdir.

Daha sonra Ermənistan tərəfi çox yüksək səviyyədə "yeni ərazilər, yeni müharibələr" və "bir santim belə ərazinin qaytarılmayacağını" dedi. Nəhayət, Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində "Dağlıq Qarabağ Ermənistandır" dedi. Bu, suveren bir dövlətin ərazisinin digər ölkənin rəhbəri səviyyəsində açıq şəkildə ilhaq edilməsi deməkdir. Bu tamamilə qəbuledilməzdir. Bu cür yanaşma nəinki danışıqlara zərbə vurur, bütövlükdə danışıqlar prosesini dağıdır. Biz həmsədr ölkələrə, beynəlxalq ictimaiyyətə ismarıc göndərdik ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi!"

Avropa İttifaqı ilə yeni ticarət sazişi barədə danışan müsahib danışıqlar prosesinin hələ də davam etdiyini, müəyyən fundamental məsələlərlə bağlı tərəflər arasında fərqli baxışların olduğunu qeyd edib:"Bununla belə, hər iki tərəf konstruktiv yanaşma göstərməklə, mövqeləri yaxınlaşdırmaq istiqamətində birgə iş aparır. Saziş layihəsinin, demək olar ki, doxsan faizi razılaşdırılıb. Lakin enerji və ticarətlə bağlı bir sıra məsələlər var ki, biz Avropa İttifaqının daha çevik yanaşma göstərməsini gözləyirik. Hesab edirik ki, Avropa İttifaqı sazişlə bağlı preferensial ticarət və ya digər ifadə ilə aqressiv ticarət yanaşması göstərməməlidir. İnanırıq ki, bu anlayışı əsas tutmaqla biz danışıqlarda irəliləyişə nail ola bilərik. Çünki bu məsələlər Azərbaycan üçün də strateji əhəmiyyətə malikdir. Bizim öz daxili islahatlar prosesimiz, iqtisadi prioritet və təşəbbüslərimiz var. Bu səbəbdən qarşılıqlı faydalı yanaşma göstərilməli və saziş elə tərtib olunmalıdır ki, hər iki tərəfin ehtiyaclarına cavab versin".

Prezidentin köməkçisi NATO-Azərbaycan əlaqələrinin hazırkı vəziyyəti ilə bağlı danışarkən bildirib ki, "Azərbaycan NATO tərəfindən etibarlı və öz öhdəliklərinə sadiq bir tərəfdaş kimi qəbul edilir. Bu gün Azərbaycan əsgərləri NATO müttəfiq və tərəfdaş ölkələri ilə çiyin-çiyinə Əfqanıstanda terrorizmlə mübarizə aparır və bu ölkəyə sülh və əmin-amanlıq gətirməyə çalışır. Azərbaycan, həmçinin, NATO müttəfiq və tərəfdaş ölkələri üçün həyati əhəmiyyətli yüklərin nəqliyyatında tranzit və logistik qovşaq kimi mühüm rol oynayır. Brüsselə səfər çərçivəsində biz, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, ümumi siyasi və regional məsələlər üzrə "29+1" (NATO + Azərbaycan) formatında müzakirələr apardıq".

Ən sonda "EURACTIV"in müxbiri H.Hacıyevin yaxasına taxdığı nişanın nə olduğu ilə maraqlanıb. O isə cavabında bu nişanın Azərbaycanda baş vermiş Qara Yanvar hadisələrinin 30-cu ildönümünü simvolizə etdiyini bildirib:"Hələ Sovet vaxtları idi və Sovet İttifaqının rəhbəri Mixail Qorbaçov Azərbaycanda fövqəladə vəziyyət elan edərək 26 min nəfərlik qoşunu Azərbaycana yeritdi. Yeganə məqsəd müstəqillik və azadlıq haqqında düşünən Azərbaycan xalqının iradəsini qırmaq, onu qorxutmaq idi. Tanklar və əsgərlər heç bir fərq qoymadan mülki etirazçılara qarşı gücdən istifadə etdi. Nəticədə 147 insan qətlə yetirildi, bir neçə yüz insan yaralandı. Onlar azadlıq, müstəqillik və ədalət istəyən günahsız mülki vətəndaşlar idi. Bu, Sovet rəhbərliyi tərəfindən kütləvi cəzalandırmanın bir elementi idi. Bu, müharibə cinayəti və bəşəriyyətə qarşı cinayət idi".

**Prezidentin köməkçisi müsahibəsində Şərq və Qərb arasında bağlantılar, Şimal-Cənub nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP və TAP kimi enerji layihələri və digər məsələlər haqqında da "EURACTIV"in oxucularına ətraflı məlumat verib.**

**Azərbaycanda fevralın 9-na təyin edilmş növbədənkənar parlament seçkilərində 95 namizəd mübarizəni dayandırıb. Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın son iclasında deyib.**

# Hay-küylə seçkiyə qatılıb, sonra sakitcə namizədliyi geri çəkib gedirlər - qeyri-ciddi hərəkətlər bununla bitirmi...

## *Qabil Hüseynli: "İstənilən halda, namizədliyini geri götürən adam bunun izahını verməlidir"*



M.Pənahov bildirib ki, seçkilərdə 19 siyasi partiyanın üzvləri təmsil olunur. Ümumilikdə, seçkilərdə hazırda 1542 namizəd qeydə alınıb. Qeyd edək ki, namizədlərin sayının belə azalmasına sosial şəbəkələrdə birmənalı münasibət bildirilməyib. Bir çoxu hesab edir ki, böyük coşqu ilə namizədliyini irəli sürən şəxslər, nədənsə, namizədliklərini sakit şəkildə geri çəkirlər. İddia olunur ki, bunun səbəbi mütləq seçicilərə izah olunmalıdır. Yəni namizəd seçki prosesindən niyə geri çəkildiyinin səbəbini mütləq izah etməlidir. Bu barədə ekspertlər nə düşünürlər?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bununla bağlı müxtəlif mülahizələr söylənir: "Qanunvericilik namizədə belə addımı atmağa imkan verir. Ancaq burada məsələnin həm də mənəvi məsuliyyət aspekti var. Çünki, ən azından, həmin namizəd 450 sakinin imzası ilə qeydiyyata alınıb. Onlara müəyyən vədlər verib. Amma mən görürəm ki, namizədliyini geri götürənlər barədə başqa fikirlər də səsləndirilir. İddia olunur ki, guya bəziləri bu addımı müəyyən sövdələşmələrin əsasında atırlar. Bu olduqca ciddi ittihamdır və mütləq mənada bunu iddia etmək üçün əldə sübut olmalıdır. Demokratik seçki ab-havası altında yaranan ruh yüksəkliyi bir çox şəxsi prosesə qoşa bildi. Buna görə də namizədlərin sayı çox oldu. Elə həmin adamlar öz güclərinə daha realistcəsinə baxdılar. Həm də prosesin gedişi bir qədər fərqlidir. Ola bilər ki, bu da bəzi adamları ruhdan salır. Görünən budur ki, köhnə deputatların böyük əksəriyyəti yenidən seçiləcək. Bəzi proqnozlara görə, parlamentin yeni tərkibinə, olsa-olsa, cəmi 20 yeni sima qatılacaq. Bu da vəzifə səlahiyyətlərinə görə mandatını itirənlərin yerini dolduracaq. Köhnə deputat korpusunun yaş həddinə məhəl qoymadan təkrar iddia ortaya qoyması göstərir ki, onlar xaotik formada bu addımı atmırlar. Demək ki, bu proseslər hansısa mərkəzlərdən idarə olunur. Heç də bunun Prezident Aparatından idarə olunduğunu söyləmək fikrində deyiləm. Hansısa qrup mənafelərini ifadə edən tərəflər də ola bilər. Belə göstəricilərin də seçki prosesinə təsiri var. Amma, istənilən halda, namizədliyini geri götürən adam bunun izahını verməlidir".

***Məhəmmədəli QƏRİBLİ***




# AZƏRBAYCAN - CANIM SƏNƏ FƏDA OLSUN

## MƏQSƏDİM - XALQIMA XİDMƏT ETMƏKDİR

### MƏMMƏDOV AĞAŞİRİN ƏLİ OĞLU

*Məmmədov Ağaşirin Əli oğlu 1974-cü ildə Qubadlı rayonunun Alaqurşaq kəndində anadan olmuşdur. 1991-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1993-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq İqtisadi Münasibətlər" fakültəsinə daxil olmuş, 1997-ci ildə isə həmin fakültəni bitirmişdir. 1993-cü ildə "Siyasi Natiqlik Məktəbi" kursunda oxumuşdur. 1996-cı ildən 1998-ci ilə qədər "Türk Dünyası Araşdırmalar Vakfı"nın Bakı Türk Dünyası Cəmiyyəti ilə İqtisad Universitetinin əlaqələndiricisi vəzifəsində çalışmışdır. 1996-cı ildə "Türk Dünyası Gənclər Federasiyası"nın fəal üzvlərindən biri olmuşdur. Qarabağda cəbhə bölgəsində Füzuli rayonunun Harami düzündə "N" saylı hərbi hissədə xidmətdə olmuşdur. 1998-ci ildən 1999-cu ilə qədər "Avrasiya" qəzetində reklam direktoru, 1999-cu ildən 2003-cü ilə qədər isə "Bu gün" qəzetində reklam direktoru vəzifəsində çalışmışdır. 2004-cü ildən 2006-cı ilə qədər "Ekspert" qəzetində müxbir və şöbə müdiri vəzifəsində işləmişdir. 2006-cı ilə qədər KAT LTD tikinti şirkətində direktor müavini vəzifəsində çalışmışdır. 2008-ci ildən 2009-cu ilə qədər "Birlik MMC" şirkətində kabel satışı üzrə menecer, 2009-cu ildən 2011-ci ilə qədər "NKM kompani"də xəzinədar, 2011-ci ildən 2013-cü ilə qədər təchizatçı, təchizat şöbəsinin müdiri və mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışmışdır. 2013-cü ildən 2016-cı ilə qədər nəqliyyat müəssisəsinin rəhbəri vəzifəsində çalışmışdır. 2016-cı ildən 2019-cu ilə qədər isə "Ekspert" qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır. Ailəlidir, 2 övladı var.*

***

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasını, ərazi bütövlüyünün bərpasını və işğal edilmiş torpaqlarımızın azad edilməsini ən ümdə vəzifə hesab etmək!

Müstəqil və azad Azərbaycanın, milli dövlətçiliyimizin, azərbaycançılıq prinsiplərinin əbədi və daha da möhkəm olmasına xidmət etmək;

Ölkənin iqtisadi inkişafında baş verən böyük irəliləyişləri daha da gücləndirmək məqsədilə aparılan islahatları dəstəkləmək;

Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə aparılması, qəbul olunacaq qanunlarda, aparılacaq islahatlarda, milli adət və ənənələrimizin, mənəvi dəyərlərimizin xüsusiyyətlərinin nəzərə alınması, kiçik və orta sahibkarlığın geniş inkişafına şərait yaradılması, xarici investisiyaların real müdafiəsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi, əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, kimsəsizlərin, müharibə veteranlarının maddi vəziyyətlərinin daha da yaxşılaşdırılması, onların bütünlüklə pulsuz tibbi xidmətlə təmin edilməsi, eləcə də digər sosial müdafiə tədbirləri ilə əhatə olunması, respublikada, xüsusilə də Abşeronda tarixi və mədəni abidələrin qorunması, aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması, su təchizatı, kanalizasiya sistemlərinin yenidən qurulması; kənd və qəsəbələrin yollarının torpaq örtüyünün asfalt örtüyü ilə əvəz edilməsi istiqamətində çalışmaq.

# Bu dairədə kimin deputat olmaq şansı getdikcə durulur...

**Parlament seçkilərinin təbliğat-təşviqat mərhələsi də qızğın fazasına qədəm qoyub. Əsas təbliğatın sosial şəbəkələr vasitəsilə aparıldığı nəzərə çarpır. Namizədlərin istifadə etdikləri digər təbliğat vasitələri də sosial şəbəkələrdə ictimailəşdirilir. Bura keçirilən görüşlərin, posterlərin yapışdırılmasının video və fotoçəkilişlərinin də namizədlərin səhifələrində paylaşılması faktını aid edə bilərik.**



Elə sosial şəbəkələrdə aparılan təbliğatdan hansı dairədə gərgin mübarizənin getdiyi barədə təəssürat yarana bilir. Biz də belə fəal dairələrlə bağlı öz mülahizələrimizi qeyd etmək qərarına gəldik. Bundan əvvəl də təhlil etdiyimiz dairələrlə bağlı maksimum obyektivliyə söykənmişik. Fəal seçki marafonunun aparıldığı fəal dairələrdən biri də 79 saylı İmişli Seçki Dairəsidir. MSK-nın rəsmi saytında həmin dairədən 20 nəfərin namizədliyinin qeydə alındığı göstərilir. Qeyd edək ki, bundan əvvəlki çağırışda dairəni Milli Məclisdə təmsil edən tanınmış iş adamı Əsabil Qasımov bu seçkilərə qatılmayıb. Seçkilərdən əvvəl onun oğlunun dairədən seçkilərə qatılmaq niyyətinin olduğu haqda söhbətlər gəzsə də, son anda belə bir qərarın verilmədiyinin şahidi olduq. Bu faktorun özü, yəni rayona təsir gücü olan bir namizədin seçkidə maraqlı tərəf kimi çıxış etməməsi digər namizədlər üçün şansı artırıb. Bundan əlavə, hakim Yeni Azərbaycan Partiyası da həmin dairədən çox da tanınmış olmayan bir namizədlə çıxış edir ki, bu da namizədlərə seçilmək şansı ilə bağlı əlavə ruh verir. Siyahıdan görünür ki, namizədlərin daha çox qeydə alındığı dairələrdən biridir. Hazırda mandat uğrunda 20 namizəd mübarizə aparır. Paytaxtdan uzaq dairə olsa da, siyahıda respublika səviyyəsində tanınan adamların olduğunu görürük. Əkbərli İltizam Nizam oğlu bundan əvvəlki seçkilərdə Müsavat Partiyasının üzvü kimi mandat qazanmış şəxsdir. 2015 seçkilərində iştirak etdiyinə görə onun məsələsinə partiyada baxılıb. Partiyadan xaric edilməsi və ona töhmət verilməsi təklifləri səsə qoyulub. Səs çoxluğu ilə İltizam Əkbərliyə töhmət verilməsi barədə qərar qəbul olunub.

Siyahıdakı namizədlərin böyük əksəriyyətinin öz təşəbbüsü ilə irəli sürüldüyünü görürük. Yalnız iki namizəd istisnadır. Onlardan biri YAP-ın təmsilçisi olan, Kürdəmir Regional Mədəniyyət İdarəsi İmişli Rayon üzrə Nümayəndəliyinin baş məsləhətçisi Əzimov Nazim Abdulrəhim oğludur. Digəri isə AMİP tərəfindən irəli sürülən, partiyanın İmişli rayon təşkilatının sədri Həsənov Tapdıq Həsən oğludur. Hər iki şəxsin seçilmə şansı elə də yüksək qiymətləndirilmir. Seçkidə iştirak edənlərin sırasında tanınmış siyasətçi Razi Nurullayevin də adı var. Maraqlıdır ki, onun adı siyahıda işsiz və bitərəf kimi göstərilir. Ola bilər ki, bu, Razi Nurullayevin rəhbərlik etdiyi və AXCP adına iddialı olan partiyanın dövlət qeydiyyatının olmaması ilə bağlıdır. Siyasətçinin seçkinin əsas favoritlərindən olduğu bildirilir. Əslən həmin rayondan olması və bir çox resurslardan aldığı dəstək onun seçilmə şansını mümkün edir. Ancaq Razi Nurullayev üçün istədiyi qələbənin elə də asan olmadığı qənaətinə siyahıda Hüseynli İlqar Qəşəm oğlunun adını gördükdən sonra gəlmək olar. İlqar Hüseynli Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədridir. Yerli və xarici medianın tez-tez müraciət etdyi tanınmış ekspertdir. Onun da şansı çox yüksək qiymətləndirilir. Hesab edilir ki, seçkinin favoriti məhz Razi Nurullayevlə İlqar Hüseynlidir.

İlqar Hüseynli bundan əvvəlki parlament seçkilərinin rəsmi nəticələrinə görə Əsabil Qasımovdan sonra ikinci nəticəni göstərib. Lakin o bununla razılaşmayıb, hətta Avropa Məhkəməsinə qədər şikayət edib.

**Aparılan təbliğatın keyfiyyəti və instrumentlərindən görünür ki, seçkinin həlledici mərhələsində önə məhz respublika səviyyəsində tanınan bu iki şəxs çıxa bilər. Təbii ki, son sözü seçicilər və rəsmi nəticələrin elan olunması deyəcək.**

***Məhəmmədəli QƏRİBLİ***

# Lukaşenkonun ümidi yenə Azərbaycana qaldı

**Son dövrlərdə Rusiya və Belarus arasında gərginləşən münasibətlər yenidən enerji sektoruna öz təsirini göstərib. Kreml neft faktoru ilə Belarusu sıxmağa başlayıb. Belarus prezidenti Aleksandr Lukaşenko bu fonda Rusiyadan gileylənərək bəyan edib ki, "qardaş ölkə" Qazaxıstan neftinin belə öz ərazisindən Belarusa nəqlinə icazə verməyib.**

Lukaşenko yaranmış situasiyanı "qəribə" adlandırıb. O bildirib ki, bir müttəfiqinin digər ümumi müttəfiqdən neft almasına imkan verməməsini anlaya bilmir. Belarus prezidenti hökumətə yeni mənbələr tapmağı və neft alışını diversifikasiya etməyi tapşırıb. Lukaşenko deyib ki, Rusiyadan Belarusa lazım olan neftin yalnız 30-40 faizini almaq lazımdır. Tələbatın qalan hissəsini isə Ukrayna və Baltik respublikalarından keçməklə digər ölkələrdən - Azərbaycan, Səudiyyə Ərəbistanı, Norveç, hətta ABŞ-dan almaq olar. Belarus prezidenti qeyd edib ki, Rusiyanın tətbiq etdiyi yeni vergitutma qaydaları Belarus iqtisadiyyatına ciddi zərər vurur və bu ölkədəki neftayırma zavodlarını gəlirsiz qoyur. Çünki Rusiyanın tələb etdiyi şərtlər yerinə yetirildiyi təqdirdə bu ölkədən alınan neftin qiyməti dünya bazarındakı qiymətdən də baha olacaq.

Xatırladaq ki, Belarus və Rusiya rəhbərləri 2020-ci ildə neftin satış qiyməti və vergitutma məsələləri ilə bağlı razılığa gələ bilməyib. Hətta mətbuatda rəsmi Moskvanın neft güzəştləri qarşılığında Belarusdan öz suverenliyindən Rusiyanın xeyrinə qismən imtinasını tələb etdiyinə dair iddialar yer alıb. Elə bundan sonra bəlli olub ki, Belarus Rusiyadan kənarda bazar qiymətləri ilə neft almaq və neft məhsullarının satışının rentabelliyini təhlil etmək niyyətindədir. Lukaşenko bu xüsusda bildirib: "Təcrübədə bunun nə ilə nəticələnəcəyini də görməliyik. Beləliklə, şərqdəki qardaşlar bunun çox bahalı olacağı ilə qorxudurlar. Biz isə hesablama aparmadan, bunu sınamadan düşünürük ki, bacaracağıq. Bunun üçün də belə bir qərar qəbul edildi ki, Azərbaycan, Səudiyyə Ərəbistanı, Norveç, Amerika, [n'mli deyil, hara nefti olurolsun, bazar qiymətinə almalıyıq". Belarus alternativ olaraq neft almaq üçün bir neçə Avropa ölkəsinə də müraciət edib. Belarusun baş nazir müavini Dimitri Krutoy bildirib ki, ölkədəki bütün neftayırma şirkətlərinin nümayəndələri artıq xaricdəki potensial tərəfdaşlarla danışıqlar aparır.

O ümid edir ki, neft almaq üçün tezliklə Minskin alternativ imkanları yaranacaq. Baş nazir müavini qeyd edib ki, hazırda Azərbaycan, Ukrayna, Qazaxıstan, Polşa və Baltik ölkələri ilə mümkün əməkdaşlığa baxılır. Belarusun Azərbaycandan da neft idxalı mümkün sayılır. Elə bu günlərdə Dövlət Neft Şirkətinin (SOCAR) İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov bildirib ki, Azərbaycan Belarusa neft sata bilər. O vurğulayıb ki, məsələ ilə bağlı danışıqlar aparılıb: "Biz həm Azərbaycan, həm də digər ölkələrin neftini arzu edən tərəflərə texniki baxımdan nəql edə bilərik. Ancaq hələ ki, bununla bağlı konkret bir şey yoxdur".

Daha əvvəl isə Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov bildirmişdi ki, rəsmi Bakı neft tədarükü məsələsində müraciət etdiyi halda Minskə kömək etməyə hazır olacaq. Onun sözlərinə görə, Azərbaycanın Belarusa bu məsələdə kömək etməsinə heç bir maneə yoxdur: "Ən çətin zamanlarda bizim xalqlarımız bir-birinə kömək edib və bu bizi birləşdirir. Biz hər zaman dostumuza dayaq oluruq. Ehtiyac yaranarsa, Azərbaycan ləyaqətlə öz qardaşlıq borcunu yerinə yetirəcək". O əlavə edib ki, bununla yanaşı, Azərbaycandan Belarusa neftin nəqlinin çətinlikləri də nəzərə alınmalıdır və enerji resurslarının ciddi bahalaşmasına gətirib çıxarmayacaq ən optimal həll yollarını axtarıb tapmaq lazımdır: "Burada nəqletmənin marşrutlarından başqa heç bir sual yoxdur ki, bu da neftin nəql edilməsinin qiymətinə ciddi təsir edir". O güman edib ki, tədarük Qara dəniz limanları vasitəsilə mümkün ola bilər. Səfir iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığının böyük potensialının olduğunu da qeyd edib: "Belarus Avropanın mərkəzində yerləşir. Yəni bizim üçün Avropa bazarı açılır.




Azərbaycan isə ön Şərqdə yerləşir ki, o da Belarus üçün Yaxın Şərqin bazarlarını açmış olur". Azərbaycandan Belarusa neft tədarükü, ekspertlərə görə, Baltikyani və Ukrayna limanlarından da həyata keçirilə bilər. Belarus neft emalı zavodları Azərbaycan, Səudiyyə Ərəbistanı və Nigeriyadan gətirilən 18 növ nefti emal etməyə hazırdır. Hesab edilir ki, bundan əvvəl olduğu kimi, indi də Azərbaycan Belarusu çətin vəziyyətdə qoymayacaq.

**Ekspert Sergey Aqibalov da hesab edir ki, Azərbaycanla danışıqlar aparmaqla Belarus hakimiyyəti vəziyyətdən çıxmağa çalışır:"Buna baxmayaraq, bunda Rusiya üçün heç bir təhlükə yoxdur. İstənilən halda, neft münasibətlərinin bərpası hər iki tərəf üçün sərfəli ola bilər. Azərbaycan üçün isə bu, Belarus bazarında möhkəmlənməkdir".**

***Nahid SALAYEV***

**Belarus Prezidenti Aleksandr Lukaşenko Rusiyadan gileylənərək bəyan edib ki, "qardaş ölkə" Qazaxıstan neftinin öz ərazisindən Belarusa nəqlinə icazə verməyib. Belarus mətbuatına açıqlama verən Lukaşenko yaranmış situasiyanı "qəribə" adlandırıb.**

# Neftə görə rus-belarus münasibətləri gərginlikdə, Qazaxıstana qadağa qoyuldu, İlham Əliyevin unikal bəyanatı...



***İlham Şaban:** "Hətta Azərbaycan belə bir vasitəçiliyi etsə də, bunun hər hansı narahatlığı olan deyil"*

Lukaşenko deyib ki, bir müttəfiqinin digər ümumi müttəfiqdən neft almasına imkan verməməsini anlaya bilmir. Belarus Prezidenti hökumətə yeni mənbələr tapmağı və neft alışını diversifikasiya etməyi tapşırıb.

Belarus rəhbəri deyib ki, Rusiyadan Belarusa lazım olan neftin yalnız 30-40 faizini almaq lazımdır. Tələbatın qalan hissəsini isə Ukrayna və Baltika respublikalarından keçməklə digər ölkələrdən - Azərbaycan, Səudiyyə Ərəbistanı, Norveç, hətta ABŞ-dan almaq olar.

O qeyd edib ki, Rusiyanın tətbiq etdiyi yeni vergitutma qaydaları Belarus iqtisadiyyatına ciddi zərər vurur və bu ölkədəki neftayırma zavodlarını gəlirsiz qoyur. Çünki Rusiyanın tələb etdiyi şərtlər yerinə yetirildiyi təqdirdə bu ölkədən alınan neftin qiyməti dünya bazarındakı qiymətdən də baha olacaq.

Xatırladaq ki, Belarus və Rusiya rəhbərləri 2020-ci ildə neftin satış qiyməti və vergitutma məsələləri ilə bağlı razılığa gələ bilməyiblər. Hətta mətbuatda rəsmi Moskvanın neft güzəştləri qarşılığında Belarusdan öz suverenliyindən Rusiyanın xeyrinə qismən imtinasını tələb etdiyinə dair iddialar yer alıb.

Davos İqtisadi Forumunda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev isə xarici jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycan texniki cəhətdən SOCAR vasitəsilə treqdinq əməliyyatları vasitəsilə Belarusa neftin çatdırılmasına köməklik göstərə bilər. İlham Əliyev jurnalistlərin nəzərinə çatdırıb ki, söhbət Azərbaycan neftindən getmir. Prezident verilən suallara cavabında bildirib ki, hələlik bununla bağlı konkret nəsə məlum deyil və hər şey danışıqların nəticəsindən asılıdır. Göründüyü kimi, İlham Əliyev hələ ki, bu istiqamətdə konkret razılığın əldə olunmadığına işarə edib və gələcəkdə mümkün ola biləcək ehtimallardan danışıb.

Belarusla Rusiya çox sıx müttəfiqlik münasibətlərinə malik ölkələrdir. Onlar arasında yaranan müvəqqəti narazılıqda Azərbaycan necə davranmalıdır, bizim prosesə qarışmağımız nə ilə nəticələnə bilər?

*"Burada söhbət siyasətdən yox, kommersiyadan gedir"*

Neft məsələləri üzrə ekspert İlham Şaban "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, burada siyasi çalar axtarmağa dəyməz: "Rusiya ilə Belarus arasındakı münasibətlər də bu amilə görə düşmənçilik halına gəlməyəcək. Müvəqqəti narazılıqdır. Dünya ölkələri arasında belə hallar tez-tez yaşanır. Azərbaycan 1998-ci ilin mart ayından bu günə qədər dünya bazarlarına neft çıxarır və öz neftini satır. İndiyə qədər Azərbaycan öz neftini bazar qiymətindən aşağı satmayıb. Bu da onun göstəricisidir ki, Azərbaycan neftə ancaq kommersiya aləti kimi baxır, ona siyasi məqsədlərlə heç zaman yanaşmır. Digər tərəfdən, Azərbaycanın "SOCAR Trading" adlı şirkəti var. Bu şirkət dünyanın ən böyük neft alverçisidir. Şirkət öz əməliyyatlarında yalnız 25 faiz Azərbaycan neftindən istifadə edir. Yəni onun satdığı neftin 75 faizi başqa ölkələrin payına düşür. Cənab Prezidentin də nəzərdə tutduğu bu şirkətdir. Yəni demək istəyir ki, istənilən ölkəyə bu xidməti göstərə bilər. Belarus qiyməti desin, "SOCAR Trading" dünyanın hansı ölkəsindən sərf etsə, oradan alıb nefti Belarusa çatdıracaq. Burada da kommersiya maraqları önə çəkiləcək. Sövdələşmə hər iki tərəf üçün sərfəli olmalıdır. Burada heç bir siyasi çalar görmürəm. Hətta Azərbaycan belə bir vasitəçiliyi etsə də, bunun hər hansı narahatlığı olan deyil. Burada söhbət siyasətdən yox, kommersiyadan gedir".

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Prezidenti Vladimir Putinin Yaxın Şərqə səfəri planlaşdırılır. Bildirilir ki, Putin İsrail və Fələstinə səfər edəcək. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumatı təsdiqləyib.**

# Putin əziyyət çəkib İsrailə gedir, İsrail isə ermənilərin faşisti qəhrəmanlaşdırmasına hələ münasibət bildirməyib...



***Samir Adıgözəlli:** "Bütün bunlara baxmayaraq, İsrail Ermənistanı faşistlərə göstərdiyi xüsusi ehtirama görə tənqid etmir"*

Daha əvvəl Fələstinin Xarici İşlər naziri Riyad əl-Maliki Rusiya Prezidentinin Fələstinə səfər edəcəyini bildirib. Onun sözlərinə görə, Fələstin lideri Mahmud Abbas rusiyalı həmkarı ilə Yaxın Şərq məsələlərini müzakirə etməyi planlaşdırır.

V.Putin yanvarın 23-də Qüdsdə keçiriləcək Beşinci Dünya Holokost Forumuna qatılacaq. Artıq Yerusalimin vağzalında olan böyük reklam löhvələrində Putinə müraciət edilir ki, Rusiyada narkotik ittihamı ilə həbs edilən israilli Naamu İssaxarı da özü ilə gətirsin. Bildirilir ki, Putinin həmin xanımı əfv edəcəyi gözlənir.

Rusiya Prezidentinin Osvensim əsir düşərgəsinin azad edilməsinin 75-ci ildönümü ilə bağlı tədbirlərdə iştirak edəcəyi də planlaşdırılır. Bəllidir ki, faşizmin zülmündən daha çox əziyyəti məhz yəhudilər çəkiblər. Hətta həmin zamanların yadigarı olan hərbi əsir düşərgələri ilə bağlı xatirələrə həsr edilən tədbirlər belə keçirilir. Rusiyanın dövlət başçısı də belə məzmunlu bir tədbirdə iştirak üçün ora səfər edir. Ancaq maraqlıdır ki, İsrail dövləti indiyə qədər Ermənistanda faşist Njdeyə ucaldılan heykələ və digər faşistlərin xatirəsinin əbədiləşdirilməsinə etiraz etməyib. İsrailin bu addımını necə dəyərləndirmək olar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, İsrail buna hamıdan birinci reaksiya verməli idi: "Bu ölkə faşizmin zülmündən necə əziyyət çəkdiyini, yəhudilərin soyqırıma məruz qaldığını hələ də deyir, təbliğ edir. Hətta Almaniya müəyyən məsələlərə görə hələ də İsrailə kompensasiya ödəyir. Faşizmin zülmündən Rusiya və biz də az əziyyət çəkməmişik. Azərbaycanın faşizm üzərində qələbəyə böyük töhfəsi olub. Prezident İlham Əliyev məhz faşizm üzərində qələbəyə həsr olunan dövlət başçılarının görüşündə Ermənistanı ifşa etdi. Sübut etdi ki, həmin ölkə ikiüzlü siyasətlə məşğul olur. Həm faşizm üzərində qələbəni qeyd edir, həm də dövlət səviyyəsində faşistləri qəhrəmanlaşdırır, onların xatirəsinə sayğı göstərir. Xüsusilə də Hitlerin yaxın silahdaşı olmuş erməni Qaregin Njdeyə olan sayğını buna misal göstərə bilərik. Azərbaycan dövlət səviyyəsində ona ucaldılan heykəlin yığışdırılmasını tələb edir. Rusiyadakı şəhərlərdən birinə vurulan xatirə löhvəsi məhz bizim tələblərimizdən sonra yığışdırıldı. Ancaq bu məsələdə İsrailin doğrudan da susqun qalması çox düşündürücüdür. İsrail həm də Azərbaycanla strateji tərəfdaşdır. Bizim ölkələr arasında yaxşı münasibətlər var. Yəni faşizmə qarşı çıxmaq həm də İsrail dövlətinin prioritet maraqları sırasındadır. Bütün bunlara baxmayaraq, İsrail Ermənistanı faşistlərə göstərdiyi xüsusi ehtirama görə tənqid etmir. Onlara bu yöndə olan müraciəti təqdim etmək lazımdır. Azərbaycan həm rəsmi, həm də qeyri-rəsmi kanallarla İsraildən bu məsələyə münasibət göstərməyi tələb etməlidir. Son vaxtlar Ermənistan Azərbaycanın dostu olan ölkələrlə yaxınlaşmaq siyasətini aparır. Belə cəhdləri İsraillə də bağlı edir. Ancaq bu qlobal problemin xırda münasibətlərə aidiyyəti ola bilməz. İsrail dövlət olaraq əvvəlcə özünə hörmət qoymaq üçün Ermənistanı qınamalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan sərhədçiləri Qazax-Ağstafa istiqamətində düşmənin psixoloji üstünlük qazanmaq səylərini qırdı - 2018-ci ilin sonlarından gedən proses...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinin dalana dirəndyi bir vaxtda konfliktin hərbi müstəvidə çözülmə ehtimalı artmaqda davam edir. Son dövrlərdə cəbhə xəttində atəşkəs hallarının düşmən tərəfindən tez-tez pozulması da savaş ehtimalını artırır.**

Bu fonda diqqət çəkən məqamlardan biri də sərhəd xəttində olanlardır.

Artıq faktdır ki, Azərbaycan-Ermənistan dövlət sərhədi boyu müxtəlif vaxtlarda situasiyanın kəskinləşməsi müşahidə olunur. Xüsusən də Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax və Ağstafa rayonları istiqamətində bu hal özünü qabarıq göstərir. Amma o da faktdır ki, həmin istiqamətlərdə sərhədlərin müdafiə və mühafizəsini həyata keçirən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunları hər dəfə düşmənin layiqli cavabını da verir. Burada istənilən düşmən təxribatının qarşısı layiqincə alınır. Sərhəd məsələləri üzrə ekspert, Dövlət Sərhəd Xidmətinin ehtiyatda olan polkovniki Afəq Abiyev də vurğulayır ki, Dövlət Sərhəd Xidməti tərəfindən son bir ildə Azərbaycan-Ermənistan dövlət sərhədində düşmənin əməliyyat imkanlarının məhdudlaşdırılması Ermənistan tərəfinin həmin istiqamətə diqqəti artırmasına səbəb olub. Ehtiyatda olan polkovnikin sözlərinə görə, Azərbaycan DSX Sərhəd Qoşunlarının qısa müddətdə dövlət sərhədində, xüsusilə Ermənistanın əsas kommunikasiya xətlərinin (qaz kəməri və Gürcüstandan Ermənistana gedən avtomobil magistralı) keçdiyi ərazilərə nəzarət imkanları əldə etməsi İrəvanı çıxılmaz vəziyyətə salıb.

Bundan sonra düşmən qeyd olunan istiqamətdəki hərbi hissələrində və yaşayış məntəqələrində yaranan psixoloji gərginliyi azaltmaq məqsədilə təxribat fəaliyyətlərinə daha çox diqqət yönəltməyə başlayıb:"Ermənistan tərəfinə Qazax və Ağstafa rayonları istiqamətində dövlət sərhədindəki bizim vəziyyət bəllidir. Qeyd etmək istərdim ki, 2018-ci ilin sonunadək Sərhəd Qoşunlarımız düşmənlə üzbəüz olmamışdı. Qazax və Ağstafa istiqamətində biz dövlət sərhədinin mühafizəsini üzərimizə götürdükdə, qarşı tərəf düşündü ki, sərhədçilərin təcrübəsizliyindən istifadə edib təxribat yarada və psixoloji üstünlüyü qazana bilər. Lakin 2019-cu ilin fevralından düşmənin sərhəddə başlayan təxribat fəaliyyətlərinin heç biri effektiv olmadı. Əksinə, bölmələrimiz, bildiyiniz kimi, 2-ci Şıxlı və "Babakər" yüksəkliyi istiqamətlərində yeni mövqelərə çıxaraq möhkəmləndilər. Nəticədə daha geniş əraziyə nəzarət etmək imkanı qazandıq. Daha sonra, oktyabr ayında mülki sakinimizi - traktorçumuzu vurdular. Onun da qisası layiqincə alındı və düşmənin peşəkar snayperləri tərəfimizdən məhv edildi".

Ehtiyatda olan polkovnik "azeridefence"ə açıqlamasında qeyd edir ki, itkilərin artması, eləcə də sərhəddə yaşadığı uğursuzluqların əvəzini çıxmaq, itirilmiş nüfuzunu bərpa eləmək məqsədilə Ermənistan tərəfi həm dövlət sərhədində, həm də informasiya məkanında təxribatlara davam edir:"Düşmən təxribatlar vasitəsilə həm Azərbaycan tərəfinin müdafiə sistemini öyrənmək, həm də sərhəd qoşunlarımızın təmas xəttində xidmət edən şəxsi heyəti üzərində psixolji üstünlük əldə etmək niyyəti güdür. Digər tərəfdən, Paşinyan hökuməti Ermənistan daxilindəki narazılıq cəhdlərinin qarşısını almağa və diqqəti cəbhəyə yönəltməyə çalışır".

Abiyevin sözlərinə görə, yanvarın 7-dən bu günədək dövlət sərhədində Ermənistan ordusunun, biri taborun qərargah rəisi olmaqla, 5 hərbi qulluqçusu zərərsizləşdirilib: "Həyata keçirilən tədbirlər nəticəsində düşmənin üzləşdiyi itkilər, düşdüyü çıxılmaz durum barədə məlumatlıyıq. Əvvəlki illərdə apardığımız təhlillər əsasında deyə bilərəm ki, düşmən bu dəfə də çoxsaylı itkilərini bir-bir avtoqəza, hansısa bədbəxt hadisə adıyla yayımlamağa çalışacaq".

Qeyd edək ki, bu gün sərhədçilərimiz sərhədboyu ərazilərdə bir sıra mühüm strateji və həyati vacib obyektləri, o cümlədən Gürcüstan-Ermənistan qaz kəmərini və kompressor stansiyasını nəzarətdə saxlaya bilir. Baş verənlərdən erməni tərəfi də kifayət qədər narahatdır. Bundan əvvəl erməni hərbi ekspert, keçmiş müdafiə naziri Seyran Ohanyanın müşaviri olmuş David Camalyan bildirib ki, əslində Azərbaycanın sərhəd qoşunlarının Ermənistanla sərhədin Qazax və Ağstafa istiqamətlərində yerləşdirilməsi təsadüfi deyil və bu addım Azərbaycanın Qarabağı geri almaq üçün hücum əməliyyatlarının bir hissəsi olacaq: "Azərbaycan Qarabağa qarşı hücuma hazırlaşır və prinsipcə istisna etmək olmaz ki, formalaşdırılan hücum qruplaşmasına onların 3-cü ordu korpusunun bölmələri də daxil ediləcək. İndiki halda prinsipial olaraq bunu qeyd etmək vacibdir: **Azərbaycanda həm daxili qoşunlar, həm də sərhəd qoşunları Qarabağa mümkün hücum zamanı döyüş əməliyyatlarına tam cəlb edilmələri nəzərə alınmaqla təşkil olunub. Yəni Azərbaycanın sərhəd qoşunlarını təkcə sərhədlərin qorunması funksiyasını həyata keçirən struktur kimi deyil, qarşısında həm də döyüş vəzifələrinin yerinə yetirilməsi görəvi dayanan tammiqyaslı döyüş vahidi kimi görmək lazımdır. Ona görə də biz arxayın olmalı deyilik ki, sərhədin şimal-şərq hissəsində daha sakitlik olacaq".**

*Tahir TAĞIYEV*



**Proseslərin inkişaf axarı göstərir ki, qarşıdakı dövr ərzində Azərbaycanın iştirakçısı olduğu nəqliyyat dəhlizləri ölkəyə böyük miqdarda vəsait qazandıracaq. Çünki hər keçən il bu dəhlizlər üzərindən daşınan yüklərin miqdarı əhəmiyyətli dərəcədə artır.**

# Azərbaycanın tranzit imkanlarına beynəlxalq maraq artır

Məhz belə bir vaxtda diqqət çəkən məqamlardan biri budur ki, Çinin "Bir kəmər, bir yol" strategiyasının əhatə etdiyi tərəfdaş ölkələrlə ticarət dövriyyəsinin ümumi məbləği ötən il 1,3 trilyon dollara çatıb.

Çin Baş Gömrük Administrasiyası bildirir ki, "Bir kəmər, bir yol" ölkələri ilə ötənilki ticarət dövriyyəsi 2018-ci illə müqayisədə 10,8 faiz artıb. Statistikaya əsasən, Çinin 2014-2019-cu illər üzrə "Bir kəmər, bir yol" ölkələri ilə ticarəti 6,4 trilyon dollardan çox olub. Çin strategiya üzrə 25 tərəfdaş ölkənin ən böyük ticarət tərəfdaşıdır. Qeyd edək ki, Azərbaycan Çin rəhbəri Si Tzinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, onun icrasında özünün əlverişli coğrafi mövqeyi, iqtisadi və nəqliyyat-logistika potensialı ilə vacib rol oynayır. Bu təşəbbüs, eyni zamanda, iki ölkə arasında tərəfdaşlığın möhkəmləndirilməsinə töhfə verir, müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları yaradır. Coğrafi-iqtisadi baxımdan əvəzolunmaz üstünlükləri olan bu dəhliz "Bir kəmər, bir yol"un icrası baxımından böyük əhəmiyyət daşıyır. Ötən ilin nəticələrinə əsasən, Azərbaycanla Çinin ticarət dövriyyəsi 2 dəfə artıb. Eyni zamanda, Azərbaycan üzərindən daşınan yüklərin də miqdarı əhəmiyyətli dərəcədə çoxalıb. Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Xəzər Həftəsi: Qlobal İdeyalar Platforması"nın açılışı zamanı bu məsələyə toxunan Xəzər Həftəsi Təşkilat Komitəsinin sədri Murat Seitnepesov qeyd edir: "Azərbaycandan keçən nəqliyyat dəhlizləri regionun ən əhəmiyyətli dəhlizləridir". O bildirib ki, "Xəzər Həftəsi: Qlobal İdeyalar Platforması" İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu çərçivəsində artıq 4-cü ildir keçirilir: "Bu il platformamızda əsasən Böyük Xəzər regionunda nəqliyyat dəhlizləri müzakirə ediləcək. Bu məsələdə Azərbaycan və Gürcüstanın rolu olduqca böyükdür. İki dəhliz Azərbaycan və Gürcüstandan keçir ki, bunlar dünya bazarına Böyük Xəzər regionundan və eyni zamanda dünya bazarından bu regiona yüklərin nəqlini həyata keçirmək potensialı olan əsas dəhlizlərdir. Bu il platformamızda müzakirə olunacaq əsas mövzulardan biri də Trans-Xəzər qaz kəməridir. Platformada Azərbaycan, Amerika Birləşmiş Ştatları, Rusiya və digər ölkələrdən gələn ekspertlər iştirak edəcək. Onlar qeyri-rəsmi formada keçirilən müzakirələrdə öz rəy və fikirlərini, tövsiyə və təkliflərini verəcəklər".

Murat Seitnepesov Böyük Xəzər regionunun dünya iqtisadiyyatının inkişafında aparıcı rol oynayan ərazi olduğunu bildirib: "Böyük Xəzər regionu yalnız beş Xəzəryanı ölkəni əhatə etmir. Bura Xəzər və Qara dəniz ətrafında yerləşən ölkələr, Çindən başlayaraq Əfqanıstan, Pakistan, Türkiyə də daxildir. Bu region 500 milyon insanı, 5 milyon kvadrat kilometr ərazini əhatə edir. Bu regionun iqtisadi əhəmiyyəti olduqca böyükdür. Böyük Xəzər regionu dünyada iqtisadi inkişaf naminə vacib nöqtələrdən biridir ki, belə nöqtələr heç də çox deyil. Biz inanırıq ki, bu region istər iqtisadi, istərsə də digər sahələri əhatə edən böyük potensiala malikdir". Ekspertin dediklərini rəqəmlər də təsdiq edir. Belə ki, ötən il Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi təxminən milyon ton olub. Dəhliz vasitəsilə daşınmış yüklərin 15,4 faizini və ya 6,6 milyon tonunu tranzit yüklər təşkil edib. Bu isə yükdaşımalardan Azərbaycanın daha çox gəlir əldə etməsi ilə müşayiət olunub. "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə də yükdaşımaların həcmində böyük artım qeydə alınır.

Xatırladaq ki, "Şimal-Cənub" dəhlizinin əsas məqsədi, ilk növbədə, Hindistandan başlayaraq Rusiya, Şimali və Qərbi Avropa, eləcə də Körfəz ölkələrinə daşınan yüklərin çatdırılma müddətini azaltmaq, daşıma qiymətlərini ucuzlaşdırmaq və dəhlizin funksionallığını artırmaqdır. Dəhliz bir neçə əsas istiqamət: Hindistan-Rusiya-Qafqaz-Körfəz ölkələri; Mərkəzi Asiya-Körfəz ölkələri; Xəzər dənizi-İran-Körfəz ölkələri və sair üzrə yükdaşıma fəaliyyətini nəzərdə tutur.




Bu istiqamətlər içərisində Azərbaycan üçün ən maraqlı istiqamət yüklərin gəmilərlə Hindistanın Mumbay limanından İranın Bəndər-Abbas limanına gətirilməsi, sonra qatar və avtomobillərlə İranın mövcud dəmir və avtomobil yolları ilə Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir və avtomobil yollarına ötürülməsi və buradan da Azərbaycan vasitəsilə Rusiyaya, Şimali Avropa ölkələrinə çatdırılmasıdır. Son bir il ərzində bu istiqamətdə Azərbaycan üzərindən daşınan yüklərin miqdarı 2 dəfədən çox artıb. Bu isə yükdaşımalardan Azərbaycanın daha çox vəsait əldə etməsi ilə müşayiət olunur.

***Tahir TAĞIYEV***

**Bu gün dövlətin iqtisadi siyasətinin əsas hədəflərindən biri də bank sektorunun ölkə iqtisadiyyatında yaxından iştirakının təmin olunmasıdır. Bunun üçün dövlət bu sektora hərtərəfli yardım edir.**

# Bank sektorumuzda zəif halqalar - maliyyə sektorumuz üçün təhdid mənbəyi...




Eyni zamanda, dövlət bank sektorunun yenidən çoxsaylı problemli kreditlər vasitəsilə iqtisadiyyatda yeni çətinliklər yaratmasını da istəmir.

Xatırladaq ki, 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev Mərkəzi Bankın sədri Elman Rüstəmova bu xüsusda tapşırıq verərək bildirmişdi: "Bu il bank sektorundan heç bir sürpriz olmamalıdır. Ona görə çox güclü nəzarət olmalıdır onların fəaliyyətinə, kreditlərin verilməsinə, o cümlədən şübhəli kreditlərin verilməsilə bağlı mexanizm olmalıdır ki, biz artıq hadisə baş verəndən sonra yox, bəri başdan qabağını ala bilək. Nəzarət elə olmalıdır ki, sürpriz olmasın. Mərkəzi Banka verilmiş yeni səlahiyyətlər bu məsələlərin həllinə kömək göstərə bilər". Görünən budur ki, Mərkəzi Bank yeni səlahiyyətləri çərçivəsində cari ildə bank sektorunda vəziyyəti tam nəzarətdə saxlamağa çalışır. Bu xüsusda "Atabank" ASC ilə bağlı baş verənlər diqqətdən yayınmır. Belə ki, ölkə prezidentinin fərmanı ilə Azərbaycan Mərkəzi Bankı vahid maliyyə nəzarəti və tənzimləmə qurumuna çevrildikdən sonra "Atabank" ASC-də ilkin araşdırmalar aparılıb. Baş bankın yaydığı məlumata görə, araşdırmalar nəticəsində "Atabank"ın ciddi maliyyə dayanıqlığı və likvidlik problemləri ilə üzləşdiyi məlum olub. Bununla belə, bütün banklarda olduğu kimi, "Atabank"da da əhalinin qorunan əmanətləri tam sığortalanıb. Hazırda Mərkəzi Bank burada yaranmış vəziyyətlə bağlı kompleks təhlillər aparır və onların nəticəsi əsasında müvafiq təkliflər hazırlanacaq. Xatırladaq ki, "AtaBank" 1993-cü ildə yaradılıb. Onun nizamnamə kapitalı 120,02 milyon manatdır. Bankın səhmlərinin 86%-i daxil olduğu "Synergy Group" MMC-yə, 9,26%-i Əşrəf Kamilova ("Synergy Group"un 99%-lik səhmdarı, "Ata Holdinq" MMC-nin Müşahidə Şurası sədrinin birinci müavini), 4,74%-i isə Mahir Rəfiyevə məxsusdur. Hesab edilir ki, "Atabank" öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkərsə, cari ildə onun fəaliyyətinin dayandırılması belə istisna olunmur. Ümumiiyyətlə, bank sektoru üzərində nəzarətin gücləndirilməsi cari ildə də xüsusi diqqət mərkəzində yer alacaq. Ekspertlərin fikrincə, 2020-ci ildə Azərbaycan bank sektoru islahatların aparılması baxımından ən vacib sektorlardan biri olacaq. Bu ildə bank sektorunun sağlamlaşdırılması, likvidliyin artırılması prioritet məsələlərdən biridir. Məsələ ilə bağlı açıqlama verən iqtisadçı-ekspert Vüqar Bayramov bildirir: "2019-cu ildə bankların sağlamlaşdırılması ilə bağlı fəaliyyətlərin genişləndirilməsi və problemli kreditlərlə əlaqədar kompensasiyanın verilməsinə baxmayaraq, bank sektoru üçün bir sıra ənənəvi problemlər praktik olaraq 2019-cu ildən 2020-ci ilə keçdi. Problemli kreditlərin kredit portfelindəki payı yenə də yüksək olaraq qalmaqdadır. Baxmayaraq ki, 2019-cu ildə bu istiqamətdə müəyyən azalmalar oldu, amma Mərkəzi Bankın göstəricilərinə əsasən, problemli kreditlərin ümumi kredit portfelindəki payı ikirəqəmlidir. Bu da onu göstərir ki, 2020-ci ildə əsas məsələlərdən biri problemli kreditlərin həcminin azalmasına nail olmaqdan ibarət olmalıdır. Bankların kredit qoyuluşlarında da artım olmasına baxmayaraq, vaxtı keçmiş kreditlərin həcmi yüksək olaraq qalır. Ümumiyyətlə, 2019-cu ildə bankların kredit qoyuluşları 15 milyard manatdan çox olub. Vaxtı keçmiş kreditlərin həcmi isə 1,4 milyard manat təşkil edib. Azərbaycan bankları 2020-ci ilə 1 milyard 569 milyon vaxtı keçmiş kreditlə daxil olub. Hazırda rəqəmlərdə azalmalar olsa da, bu ciddi azalma hesab olunmur. Bu onu göstərir ki, 2020-ci ildə bu sahədə daha ciddi fəaliyyətlərin həyata keçirilməsinə ehtiyac var". Ekspert hesab edir ki, 2020-ci ildə əsas hədəflərdən biri də istehlak kreditlərinin həcminin azaldılması fonunda kommersiya banklarının real sektorunun daha çox maliyyələşdirməsinə nail olmaqdan ibarət olmalıdır. Onun sözlərinə görə, bank sektoru üçün vacib məqamlardan biri də kredit faizlərinin yüksək olaraq qalmasıdır: "2020-ci ildə bankların likvidliyinin artırılması, problemli kreditlərin həcminin azaldılması, kredit faizlərinin optimallaşdırılması, faiz dərəcələrinin aşağı salınması, real sektora daha çox kreditlərin ayrılması, xüsusən də bank sektoruna olan inamın artırılması əsas hədəflərdən olacaq. Bunların hər hansı formada reallaşması isə Mərkəzi Bankın fəaliyyətindən asılıdır.

2020-ci ildə Mərkəzi Bankın fəaliyyəti bank sektorunda yeni dəyişikliklərə gətirib çıxara bilər. 2019-cu ildə Maliyyə Bazarlarına Nəzarət Palatasının ləğv edilərək səlahiyyətlərinin Mərkəzi Banka verilməsi və idarəetmənin mərkəzləşdirilməsi nəticəsində bu il bank sektorunda daha çox islahatların aparılması imkanları var. Bu baxımdan 2020-ci ilin bank sektoru üçün həlledici illərdən biri olacağını düşünürəm. Bank sektorunda aparılan islahatlar qeyri-neft sektorundakı inkişafın dayanıqlığını müəyyənləşdirən əsas faktorlarda biri olaraq qalacaq. 2020-ci ildə bank olmayan kredit təşkilatlarının da sağlamlaşdırılması və onların ucuz maliyyə resurslarına çıxış imkanlarının artırılması önəmli hədəflərdən olacaq".

*Ramil QULİYEV*

# Ermənilər "Aşıq Qərib"i və hətta "Koroğlu"nu mənimsəmək üçün hərəkatə keçdilər...

***İlhamə Qəsəbova:** ”...o dastanlar Azərbaycan xalqının şifahi abidələridir”*

**Azərbaycan eposları sırasında xüsusi yeri və çəkisi olan bir neçə dastan var ki, həmin dastanlara başqa xalqlar da şərik çıxmaqdadırlar. Halbuki, o dastanların qeyri-türklərlə uzaqdan-yaxından heç bir əlaqəsi yoxdur. Qəhrəmanlıq dastanlarımızdan biri olan "Koroğlu"ya qarşı ermənilərin irəli sürdükləri əsassız iddialar, onların "Aşıq Qərib"i mənimsəmək istəkləri artıq başqa bir şəkil almaqdadır.**

nin arxasında Qafqazda "qədim xalq olduqlarını", "qədim mədəniyyətə sahib olduqlarını" həm tarixi, həm də siyasi cəhətdən "sübut" etmək durudu. Amma nə qədər çalışsalar da, buna nail ola bilmədilər. Bu proses xivlərində və ədəbiyyat muzeylərində saxlanan "Koroğlu" variantlarının öyrənilməsinə həsr olunub. Onun tədqiqatlarından da məlum olur ki, erməni alimləri "Koroğlu"nu dərindən öyrənməyə ciddi səylər göstəriblər... sübuta yetirib. Tədqiqatçı "Koroğlu" rəvayətlərinin ermənilər arasında yayılmasının səbəbini, obyektiv olaraq, Azərbaycan mədəniyyət dairəsinin təsiri altında, konkret olaraq aşıqlar tərəfindən gerçəkləşdiyi

"Koroğlu"ya yüz ildən artıqdır "sahib durmağa" çalışan ermənilər bütün güclərini birləşdirərək bu dastanın "erməni eposu" olmasını "təsdiqləmək" uğrunda mübarizəyə girişiblər. Məlum məsələdir ki, onlar nə qədər çalışsalar da, buna nail ola bilmirlər. "Aşıq Qərib" dastanı ilə də bağlı ermənilərin gördüyü işlər tez-tez erməni mediasında yer alır.

Bu gün ermənilərin əsas məqsədi "Koroğlu" və "Aşıq Qərib" dastanlarını "erməni eposu" kimi UNESCO-nun qorunan Qeyri-maddi mədəni irs siyahısına daxil etməkdir. Artıq bir neçə il əvvəldən başlayaraq onlar aşıq sənətini ("qusan sənəti"), "Aşıq Qərib" və "Koroğlu"dastanlarını UNESCO-ya daxil etmək üçün işlər görürlər. Hətta "Aşıq Qərib" dastanının UNESCO-ya salınması ilə bağlı işlərin yekunlaşmaq üzrə olduğu haqqında erməni mediası yazır. Yeri gəlmişkən, bir neçə il əvvəl "Aşıq Qərib"in "erməni dastanı" kimi UNESCO-ya daxil edilməsinin qarşısının alınması üçün AMEA-nın müxbir üzvü, mərhum görkəmli folklorşünas-alim, BDU-nun folklor kafedrasının müdiri Azad Nəbiyevin rəhbərliyi ilə koordinasiya şurası da yaradılmışdı. Lakin təəssüf ki, bu gün həmin şura fəaliyyət göstərmir.

Məsələ burasındadır ki, ermənilər hər iki dastanımızı öz adlarına UNESCO-ya daxil etməkdə israrlıdırlar.

AMEA-nın Folklor İnstitutunun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru İlhamə Qəsəbova bizimlə söhbətində bildirdi ki, ermənilərin "Aşıq Qərib" və "Koroğlu"nu "erməni eposu" kimi UNESCO-ya təqdim etməsi özü böyük saxtakarlıqdır. O hesab edir ki, ermənilərin bu cəhdlərinin qarşısı UNESCO-nun ekspertləri tərəfindən alınmalıdır. "Ermənilər il ərzində UNESCO-ya bir neçə fayl təqdim edirlər. Təəssüf ki, bu fayllar əsasən ermənilərin Azərbaycan mədəniyyətindən oğurladıqları sərvətlərlə bağlı fayllardır. Onların xeyli hissəsi geri qaytarılsa da, bəzən bəziləri qeydiyyata alınır. Ermənilər "Koroğlu" və "Aşıq Qərib"i mənimsəmək işinə hələ XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayıblar. Bəzi erməni "aşıqları" öz repertuarına bu dastanları salıblar. Onlara, əlbəttə, aşıq demək olmaz. Bu adamlar Azərbaycan aşıqlarından bir-iki hava öyrənib çalırdılar. Əslində, onların "Koroğlu"nu, "Aşıq Qərib"i öyrənməsi elə-belə, kor-koranə getmirdi, onu erməni şovinistləri, kilsəsi, rəhbərləri idarə edirdilər.

Müasir Azərbaycan koroğluşünaslığının görkəmli simalarından olan professor İsrafil Abbaslı "Koroğlu" dastanına qarşı ermənilərin həyata keçirdikləri saxtakarlıqları tədqiq edib. Onun "Koroğlu"nun öyrənilməsinə aid ilk araşdırmaları 1970-1980-ci illərdən başlayır. Bu tədqiqatların böyük qismi erməni əlifbasında yazıya alınmış və Ermənistanın arstəriblər. İ.Abbaslı araşdırmalarında təkcə mətnlərin təhlili ilə kifayətlənməyib, həmin mətnlərlə bağlı araşdırma aparmış erməni alimlərinin tədqiqatlarında çoxsaylı saxtakarlıq faktının da üstünü açıb. İ.Abbaslı "Koroğlu" eposunun "erməniləşdirilməsi" cəhdinin fakt və arqumentlərə əsaslandırmaqla aydın tarixini müəyyənləşdirib, bu "işdə" kimin nə vaxt və nə kimi "əməyi" olduğunu erməni mənbələrinin öz materialları əsasında qənaətinə gəlib. Hətta sizə məlumdur ki, "Koroğlu"nu o dövrdə mənimsəməyə nail ola bilməyən ermənilər onun motivləri, süjeti əsasında "Sasunlu David" dastanını yaradıblar. Ermənilər "Koroğlu", "Aşıq Qərib" dastanlarını mənimsəməyə cəhd göstərirlər, onların mətnini dəyişməyə nail ola bilsələr də, şeirləri Azərbaycan dilində qeyd edir, oxuyurlar".

Folklorşünas qeyd edir ki, onların "Koroğlu" və "Aşıq Qərib"i mənimsəmək cəhdlərinin qarşısı Azərbaycan Əqli Mülkiyyət Agentliyi tərəfindən alınmalıdır. Əqli Mülkiyyət Agentliyinin indiyə qədər erməni saxtakarlığının ifşa edilməsində kifayət qədər iş gördüyünü qeyd edən İ.Qəsəbova hesab edir ki, alimlər özləri də bu sahədə mübarizələrini davam etdirməlidirlər. "Azərbaycan xalq yaradıcılığının, aşıq ədəbiyyatının incilərindən olan "Aşıq Qərib" və "Koroğlu" dastanları heç bir vaxt "erməni eposları" kimi hansısa beynəlxalq sənədlərə salına, təsisatlara qəbul oluna bilməz, çünki o dastanlar Azərbaycan xalqının şifahi abidələridir. Ermənilərin dastanlarımıza qarşı irəli sürdükləri əsassız iddiaları əsaslı sübutlarımızla beynəlxalq qurumlar qarşısında məhv etməliyik. Çünki oğurlayan onlar, sərvəti oğurlanan isə bizik. Bunu dünya bilir, elə həmin humanitar beynəlxalq qurumlar da bütün məsələlərdən xəbərdardırlar, lakin dünyada olan güclü erməni lobbisi bir sıra hallarda beynəlxalq qurumlara nüfuz edə bilir.

Bu sirr deyil. Amma, bununla belə, Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasət, Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin, ədəbiyyatının təbliği sahəsində gördüyü saysız iş, apardığı təbliğat ermənilərin bizə qarşı uzun illərdən bəri həyata keçirdikləri saxtakarlıqların, şər kampaniyasının təməlini sarsıdıb" - deyə İ.Qəsəbova qeyd etdi.







*”Ermənilərin dastanlarımıza qarşı irəli sürdükləri əsassız iddiaları əsaslı sübutlarımızla beynəlxalq qurumlar qarşısında məhv etməliyik”*

***İradə SARIYEVA***

**Artıq bir neçə aydır vətəndaşlar, sahibkarlar və şirkətlər "AtaBank"dan pullarını çıxara bilmirlər. Bəzilərinə isə vaxtaşırı cüzi məbləğ qaytarılır. Ötən ilin oktyabr ayının 1-nə olan son məlumata görə, aktivləri 532 milyon manat, depozitləri 286.3 milyon manat, kredit portfeli 374.7 milyon manat olan "AtaBank" ASC əmanətçiləri qarşısında öhdəliklərini yerinə yetirə bilmir.**

# "AtaBank"da nə baş verir - əmanətçilərin problemini araşdırdıq...

## *Əkrəm Həsənov: "Bank əmanəti maksimum 5 iş günü müddətində tam qaytarmalıdır"*




Belə ki, 2019-cu ilin sentyabr ayından etibarən əmanətlərini geri çəkmək istəyənlər bu istəklərini reallaşdıra bilmirlər. Bir sözlə, "AtaBank" ASC əmanətlərini geri götürmək niyyətində olanların pullarını ödəyə bilmir.

Bununla əlaqədar olaraq bir qrup əmanətçi əvvəllər Maliyyə Bazarlarına Nəzarət Palatasına, bu ildən isə Mərkəzi Banka şikayət etsə də, yenə də müsbət nəticə əldə edə bilmir. Əksinə, nə baş verdiyi barədə heç bir rəsmi açıqlama verilməməsi əmanətçilərin şübhələrini daha da çoxaldır.

Yaranmış vəziyyətdə əmanətçilər vəsaitlərinin batmasından narahatdırlar.

"AtaBank" ASC-də baş verənlərlə bağlı məlumat yayan Mərkəzi Bank bildirir ki, ölkə Prezidentinin fərmanı ilə Azərbaycan Mərkəzi Bankı (AMB) vahid maliyyə nəzarəti və tənzimləmə qurumuna çevrildikdən sonra "AtaBank" ASC-də ilkin araşdırmalar aparılıb: "Araşdırmalar nəticəsində "AtaBank"ın ciddi maliyyə dayanıqlığı və likvidlik problemləri ilə üzləşdiyi məlum olub. Bununla belə, bütün banklarda olduğu kimi, "AtaBank"da da əhalinin qorunan əmanətləri tam sığortalanıb. Hazırda AMB Bankda yaranmış vəziyyətlə bağlı kompleks təhlillər aparır və onların nəticəsi əsasında müvafiq təkliflər hazırlanacaq. 2019-cu il oktyabrın 1-nə "AtaBank"ın öhdəlikləri 389,438 milyon manat (illik müqayisədə 12,4% az), o cümlədən, depozit portfeli 286,268 milyon manat (6,2% az), balans kapitalı isə 142,636 milyon manat (1,3% az) təşkil edib. Bununla belə, bank ötən ilin yanvar-sentyabr aylarını 22 min manat xalis mənfəətlə (74,4% az) başa vurub".

*"Əmanətlərin qaytarılmamasına görə həm vətəndaşlar, həm fərdi sahibkarlar, həm də hüquqi şəxslər, təbii ki, artıq məhkəməyə də müraciət edə bilər"*

Bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənov bildirdi ki, Mülki Məcəllənin 947.2-ci maddəsinə əsasən, bank əmanəti maksimum 5 iş günü müddətində tam qaytarmalıdır: "Həmin məcəllənin 959.2-ci maddəsinə görə isə hər hansı müştərinin, o cümlədən, hüquqi şəxsin sərəncamı ilə onun cari hesabındakı vəsait, bir qayda olaraq, 1 gün ərzində verilməli və ya tələb edilən digər hesaba köçürülməlidir. Yəni "AtaBank" bu müddətləri çoxdan ötürüb, özü də kütləvi olaraq".

Ə.Həsənovun sözlərinə görə, əmanətlərin qaytarılmamasında 2 səbəb ola bilər: "Həm vətəndaşlar, həm fərdi sahibkarlar, həm də hüquqi şəxslər, təbii ki, artıq məhkəməyə də müraciət edə bilər. Lakin məhkəmə prosesi həm vaxt, həm də xərc baxımından hamı üçün əlverişli deyil. "Banklar haqqında" Qanunun 62.2-ci maddəsinə əsasən, bank öz öhdəliklərini yerinə yetirmədikdə, bir və ya bir neçə kreditor Mərkəzi Banka vəsatətlə müraciət edə bilər. Mərkəzi Bank vəsatətə onu aldığı gündən 5 təqvim günü müddətində baxır və bankın öz öhdəliklərini yerinə yetirmədiyi faktını müəyyənləşdirirsə, bank lisenziyasının ləğvi və iflas proseduruna başlanmasına dair məhkəməyə ərizə vermək haqqında qərar qəbul edir. Mərkəzi Bank məhkəməyə ərizəni bu barədə qərarı qəbul etdikdən sonra 3 təqvim günü ərzində verir. Bankın öz öhdəliklərini yerinə yetirmədiyi faktı müəyyən edilməmişsə, Mərkəzi Bank kreditorlara əsaslandırılmış imtina göndərir. Yəni Mərkəzi Bank mütləq sizə cavab verməlidir".

**Günel CƏLİLOVA**

**Açıqlanan statistik rəqəmlərə əsasən, 2019-cu ildə Türkiyədən Azərbaycana məşğulluq məqsədilə səfərlərin sayı artıb. Bu barədə Türkiyənin Məşğulluq Xidməti Baş İdarəsindən (İŞKUR) bildiriblər. Statistikaya əsasən, ötən il ərzində Türkiyədən Azərbaycana iş axtarmaq üçün gələnlərin sayı 2018-ci illə müqayisədə 93,5 faiz artıb.**

# Bir vaxtlar Azərbaycandan Türkiyəyə işləməyə gedirdilər, indi əksinə proses başlayıb...

## *Azər Allahverənov: "Türkiyə vətəndaşları üçün Azərbaycan maraqlı, yaxın ölkədir"*



İdarədən bildiriblər ki, bu dövr ərzində Azərbaycana iş tapmaq üçün səfər edənlərin sayı 60 nəfər olub. Ümumilikdə, hesabat dövründə 19 991 nəfər Türkiyə vətəndaşı iş tapmaq üçün xaricə səfər edib. Bu, 2018-ci illə müqayisədə 20,3 faiz azdır.

Qeyd edək ki, əvvəllər Azərbaycan vətəndaşları iş tapmaq üçün Türkiyəyə üz tuturdular. Ancaq indi vəziyyət dəyişib. Artıq əmək fəaliyyəti ilə məşğul olmaq istəyənlər ölkəmizə üz tuturlar. `

Miqrasiya sahəsi üzrə ekspert Azər Allahverənov bildirdi ki, əcnəbi miqrantlar əmək fəaliyyəti üçün ölkəni seçəndə bir neçə mühüm indikatora diqqət yetirir. Onun fikrincə, bu indikatorların həmısı önəmlidir: "Hər hansı bir ölkənin vətəndaşı başqa ölkəyə məşğulluq məqsədilə miqrasiya edəndə, ilk növbədə, həmin ölkədə olan bəzi məsələlərə diqqət ayırır. Əsas diqqəti miqrasiya edəcəyi ölkədəki ictimai-siyasi vəziyyətə yönəldir. Sabitlik olmasa, müharibə şəraiti olarsa, həmin ölkəyə iş üçün getməkdən imtina edir. İkinci diqqət yetirdikləri məsələ ölkənin iqtisadi artım sürətidir. İqtisadiyyat inkişaf etmirsə, sərmayə qoyuluşu azdırsa, ölkə əmək miqrantları üçün cəlbedici olmur. Miqrantlar ölkənin regional layihələrdə iştirakına və payına da nəzər yetirirlər. Bir ölkənin ərazisində genişmiqyaslı iqtisadi layihələr həyata keçirilirsə, ölkə beynəlxalq müstəvidə həyata keçirilən layihələrin iştirakçısıdırsa, orada iş yerlərinin olması ehtimalı yüksəkdir. Əmək miqrantlarının fikir verdiyi digər mühüm məsələ ölkədə olan işsizlik səviyyəsidir. Əgər kimsə, məsələn, İtaliyada əmək fəaliyyəti ilə məşğul olmaq istəyirsə, bura üz tutmaya bilər. Çünki bu ölkədə işsizlik səviyyəsi son bir neçə ildə yüksəlib. Eynilə Yunanıstanda işsizliyin artdığı, hətta əməkhaqqı səviyyəsinin aşağı düşdüyü müşahidə edilir. Buna görə də həmin ölkələrdə iş tapmaq çətin olur, bunu nəzərə alaraq həmin ölkələrə məşğulluq üçün miqrant az gedir, eyni zamanda, həmin ölkələr də kənardan çox əmək miqrantı cəlb etmək istəmirlər.

*"Əmək miqrantları ölkələri seçən zaman dil, mədəniyyət və ölkələrin coğrafi yaxınlığını da nəzərə alırlar"*

Xarici miqrantlar sadalanan indikatorlar üzrə ölkənin əmək bazarının vəziyyətini qiymətləndirirlər. Əgər göstəricilər yaxşıdırsa, həmin ölkəyə iş üçün miqrasiya edirlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, əmək miqrantları ölkələri seçən zaman dil, mədəniyyət və ölkələrin coğrafi yaxınlığını da nəzərə alırlar: "Türkiyə vətəndaşları üçün Azərbaycan çox yaxın ölkədir. İstər siyasi, istər mədəni, istərsə də digər aspektlərə nəzər yetirəndə görürük ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir. İki ölkənin vətəndaşlarının da bir-birinə münasibəti yaxşıdır. Türkiyə üçün Azərbaycan çox doğma cəmiyyətdir. Dil yaxınlığı var, eyni zamanda, onlara yad münasibət olmur. Buna görə də Türkiyə vətəndaşları üçün Azərbaycan maraqlı, yaxın ölkədir. Onlar ölkəmizdə əmək fəaliyyəti göstərməkdən, burada daimi yaşamaqdan narahat deyillər. Ona görə də Azərbaycanda işləyən Türkiyə vətəndaşlarının sayı çoxdur".

**Günel CƏLİLOVA**

# Yol qəzalarında piyada ölümlərinin azalmasının həlledici səbəbi - keçid olmayan yerlərdə nəzarətin gücləndirilməsi...

**Vilayət Eyvazov Daxili İşlər naziri təyin ediləndən sonra piyadalar üçün keçid olmayan, amma əhalinin gur olduğu yollarda polis nəzarəti gücləndirildi. Belə ki, günün müxtəlif saatlarında, xüsusən də pik vaxtlarda polislər yolu tənzimləyərək piyadaların keçməsinə bilavasitə kömək edirlər.**



## *Azər Allahverənov: "Görülən tədbirlər və nəzarətin gücləndirilməsi piyada ölümlərinin azalmasına öz təsirini göstərib"*

Bu arada ötən il baş verən avtoqəzalarla bağlı statistik məlumatlar açıqlanıb. Məlum olub ki, ötən il respublika ərazisində 1870 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Nəticədə 821 nəfər həlak olub, 1702 nəfər xəsarət alıb. Bu da 2018-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin sayının 53 fakt, onların nəticəsində həlak olanların sayının 99 nəfər artması, xəsarət alanların sayının isə 9 nəfər azalması deməkdir.

Ancaq qəzalarla bağlı yayılan statistik rəqəmlərdə diqqəti çəkən məqam ondan ibarətdir ki, piyadaların ölümü ilə nəticələnən qəzalar azalıb. Qeydə alınan ümumi hadisələrin 43,6 faizi piyadaların vurulması ilə bağlı olub ki, nəticədə 329 nəfər həlak olub, 527 nəfər xəsarət alıb. Müqayisə üçün qeyd edək ki, 2018-ci ildə ölkə üzrə 345 piyada qəzada həlak olub. Görünən odur ki, piyadaların ölümü ilə nəticələnən qəzalar azalıb. O baxımdan keçid olmayan yerlərdə nəzarətin gücləndirilməsinin piyada ölümlərinin azalmasında nə kimi rolu olub?

Məsələyə münasibət bildirən nəqliyyat sahəsi üzrə ekspert Azər Allahverənovun sözlərinə görə, DİN tərəfindən bu yöndə görülən tədbirlər öz müsbət təsirini göstərir: "Təbii ki, görülən tədbirlər və nəzarətin gücləndirilməsi piyada ölümlərinin azalmasına öz təsirini göstərib. Piyadalar üçün keçid olmayan yerlərdə polis nəzarəti artıb. Görünən odur ki, müvafiq qurumların həyata keçirdiyi profilaktik tədbirlər öz nəticəsini verir. Ancaq bütün bunlarla yanaşı, digər faktorlar da var. Məsələ ondadır ki, artıq piyadalar əksər yerlərdə müşahidə kameralarının, DYP əməkdaşlarının olmasının fərqindədirlər. Piyadalar qayda pozmalara yol verdikdə müvafiq tədbirlər görülür. Başqa bir tərəfdən, yol hərəkəti qaydaları ilə bağlı geniş maarifləndirmə işləri həyata keçirilir. İstər DİN tərəfindən, istərsə də KİV tərəfindən bu işlər görülür. İnsanlar yolları keçərkən maksimum diqqətli olurlar. Bütün bunlar, nəticə etibarilə, öz təsirini göstərir. Piyada ölümləri ilə nəticələnən qəzaların sayını daha da azaltmaq üçün mütləqdir ki, maarifləndirmə işlərinin miqyası bir qədər də genişləndirilsin. Orta məktəblərdə, sürətli yolların olduğu ərazilərdə yerləşən obyektlərdə bu kimi işlərin görülməsinə ehtiyac var. Digər bir tərəfdən, piyadaların yolu keçmələri üçün maksimum şərait olmalıdır. Belə şərait olmadığı təqdirdə piyadalar necə gəldi yolu keçməyə cəhd edəcəklər. Ona görə də nəzarətin gücləndirilməsi ilə yanaşı, piyadalara yolu keçməklə bağlı şərait də yaradılmalıdır".

*"Piyada ölümləri ilə nəticələnən qəzaların sayını daha da azaltmaq üçün..."*

***Vidadi ORDAHALLI***

# Azərbaycanda yeni doğulan uşaqlar arasında oğlanların payı 53 faizə çatdı - bir neçə il əvvəlki vəziyyət dəyişir

**Əhalinin sayının artması ölkənin demoqrafik inkişafı, güclənməsi, xalq, millət kimi sözümüzün çəkisinin daha da artması deməkdir. Savadlı, təhsilli, müasir dünyagörüşlü insanlarımızın sayı nə qədər çox olarsa, ölkə bir o qədər inkişaf edər, dünyada nüfuzu daha da artar. Ona görə də bu hadisə hər bir Azərbaycan vətəndaşını sevindirməlidir.**



## *Fatimə Hacıbəyli: "Qızların sayının azalması cəmiyyətdə kəskin sosial problemlər yarada bilər"*

Açıqlanan statistik rəqəmlərə əsasən, ötən ilin 11 ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 129183 doğulan körpə qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə bu göstərici 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə dəyişməyərək eyni səviyyədə (14,2) qalıb. Doğulanların 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarıdır. Körpələrdən 3102-si əkiz, 102-si üçəm, 8-i isə dördəm doğulanlardır.

Əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,8-dən 5,6-ya düşüb.

Təəssüf ki, hələ də yeni doğulan körpələr arasında oğlan uşaqlarının faiz nisbəti çoxluq təşkil edir. Belə ki, körpələrin 53,4 faizi oğlan, 46,6 faizi isə qız uşaqlarıdır.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan ailələrində "mənim niyə oğlum yoxdur" sualı populyardır: "Sırf oğlu olmadığına görə psixoloji problemlər yaranan ailələr yetərincədir. Bəzən Azərbaycan ailələrində oğlu olmayan qadına sonsuz kimi baxır, onu qınaq obyektinə çevirirlər. Oğlan uşağı dünyaya gətirməyən gəlinlər ən arzuolunmaz gəlinlərdir".

Həmsöhbətimiz hesab edir ki, ailələrdə qız uşaqlarına münasibəti dəyişmək üçün sosial çarxların, kütləvi tədbirlərin köməyilə ciddi maarifləndirmə işləri aparmaqla yanaşı, qaydaları sərtləşdirmək lazımdır: "Müasir ailələrdə qız uşaqları üçün münasib həyat şəraiti standartları yaratmaq lazımdır. Başlıca problem ailənin qız övladına normal həyat şəraiti yaratmamasındadır. Oğlan uşaqları üçün ev, torpaq payı, miras nəzərdə tutulduğu halda, qız uşaqları mülkiyyət hüquqlarından məhrum olur".

Birlik sədri onu da əlavə etdi ki, qızların sayının azalması cəmiyyətdə kəskin sosial problemlər yarada bilər: "İlk növbədə, dünyaya uşaq gətirən anaların sayı azalacaq. Gələcəkdə oğlanlar ailə qurmaq istərkən çətinliklə üzləşəcəklər. "Əgər qızdırsa, onun dünyaya gəlməsini istəmirik" fikrindən insanları çəkindirmək lazımdır. Nəzərə almaq lazımdır ki, hər il oğlan uşaqlarının sayı artır, qız uşaqlarının sayı isə azalır. Evlənmə yaşına çatanda oğlanların sayı qızlardan çox olacaq. Belə olan halda isə subayqalma halları olacaq, oğlanlar başqa ölkələrdən, başqa millətdən olan qızlarla evlənəcək, nikahların milliliyini qorumaq çətinləşəcək. Milli mentalitetin qorunması üçün atanın da, ananın da eyni millətdən olması vacibdir, xüsusən də bunun bizim kimi o qədər də böyük olmayan və gənc ölkə üçün böyük əhəmiyyəti var".

*"Ailələrdə qız uşaqlarına münasibəti dəyişmək üçün sosial çarxların, kütləvi tədbirlərin köməyilə ciddi maarifləndirmə işləri aparmaqla yanaşı..."*

Ekspertin sözlərinə görə, hazırda cəmiyyətdə, televiziyalarda və sosial şəbəkələrdə əxlaqsızlığın təbliği gedir: "Bu isə ailələrdə qız uşaqlarının olmasına böyük qorxu yaradır. Onlar fikirləşirlər ki, indiki dövrdə qız uşaqlarını tərbiyə etmək çox çətindir. Burada əsas faktorlardan biri də ailələrdə sosial problemlərin olmasıdır. Ailədə sosial problemlər varsa, onlar düşünürlər ki, qızı olduqdan sonra böyütməli, oxutmalı, cehiz verməlidir və s. Ona görə də bu yükləri öz üzərlərinə götürmək istəmirlər. Ancaq onlar oğlan olduqda düşünürlər ki, böyüdəcəklər və gələcəkdə də övladları onlara dayaq olacaq. Bundan əlavə, qadınlara qarşı olan davranışlar da öz işini görür. Cəmiyyətdə qadınlara edilən zorakılıqları görürük. Biz indi müasirləşməliyik, avropalaşmalıyıq, ancaq, əksinə, radikal dinlər, stereotiplər bizi geri atır".

***Günel CƏLİLOVA***

# Bakı məktəblərində istilik məsələsi - paytaxtın icra hakimiyyətinin reaksiyası...

**Orta ümumtəhsil məktəblərinin istiliklə təchiz olunması üçün dövlət tərəfindən davamlı addımlar atılır. Nəinki Bakıda, hətta bölgələrdə də orta ümumtəhsil məktəblərində müasir tələblərə cavab verən istilik sisteminin qurulmasına nail olunsa da, bəzi məktəblərdə hələ də istiliklə bağlı problem yaşanır.**



***297 saylı məktəbin direktoru Nailə Cəfərova:*** *"Qazanxanamızda problem yaranıb və hazırda orada iş gedir"*

***BŞTİ:*** *"Problemə səbəb qış dövrünə keçidlə bağlı 297 saylı tam orta məktəbin qazanxanasında təmir işlərinin aparılmasıdır"*

***Binəqədi Rayon İH:*** *"Məktəblər Təhsil İdarəsinin nəzdində olduğu üçün, məktəblərin istiliklə təmin olunması, eləcə də digər məsələlərə bu qurum baxır"*

***266 saylı məktəb:*** *"Problem tam olaraq öz həllini tapıb"*

Valideynlərin şikayətlərinə əsaslansaq, bəzi məktəblərdə istilik ya kökündən yoxdur, ya da istilik sistemi çox zəif işləyir, onun gücü sinif otaqlarını, dəhlizi qızdırmağa çatmır. Hətta özümüz şahidi olmuşuq ki, bəzi məktəblərə valideynlər qızdırıcılar da aparırlar. Əlbəttə, bu hal kütləvi deyil, amma Bakıda lap bir məktəbdə də olsa istilik siteminin işləməməsi çox mənfi haldır və dövlətin bu yöndə apardığı siyasətə ziddir. Nəzərə alsaq ki, məktəblərin çoxunda seçki məntəqəsi quraşdırılıb, bu səbəbdən də istiliyə daha çox tələbat var.

Binəqədi rayonunun Biləcəri qəsəbəsində yerləşən 297 saylı orta ümumtəhsil məktəbində istilik sisteminin işləməməsi həm şagirdlərin, həm də valideynlərin ciddi narazılığına səbəb olub. İstilik sisteminin işləməməsi üzündən uşaqlar soyuq otaqlarda otururlar.

**Valideynlər mətbuata bildiriblər ki, yeni il tətili bitdikdən sonra bu məktəbdə istilik sistemi işləmir. "Dəfələrlə bu barədə iradlarımızı bildirmişik. Amma məktəb rəhbərliyi müxtəlif bəhanələrlə vəziyyətdən çıxmağa çalışıb. Vəziyyət isə dözülməzdir" - deyə valideynlərdən biri deyib.**

Məsələ ilə bağlı əvvəlcə Biləcəri qəsəbəsindəki 297 saylı orta ümumtəhsil məktəbi ilə əlaqə saxladıq. Faktı məktəbdən təsdiqlədilər və bildirdilər ki, bir neçə həftədir istilik üzünə həsrət qalıblar. Hadisə ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinə, Bakı İstilik İdarəsinə, Bakı Şəhər üzrə Təhsil İdarəsinə və digər aidiyyəti dövlət qurumlarına yazılı və şifahi müraciət edilsə də, hələ də problem öz həllini tapmayıb.

297 saylı məktəbin direktoru Nailə Cəfərova "Bakı-Xəbər"ə bildirdi ki, məktəbin istilik aldığı qazanxanada ciddi problem yarandığı üçün məktəbin istiliklə təchiz edilməsində fasilə yaranıb: "Qazanxanamızda problem yaranıb və hazırda orada iş gedir, istiliyin verilişini bərpa etməyə çalışırlar. Məktəbimizin istilik sistemində yaranan problemi artıq əlaqədar qurumlar nəzarətə götürüb. Fikrimcə, yaxın vaxtlarda məktəbimizə istilik verilişi bərpa ediləcək".

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən isə bildirilib ki, 297 saylı orta məktəbdə istilik sistemlərinin işləməməsi məktəbin qazanxanasında aparılan təmir işləri ilə bağlıdır. "Problemə səbəb qış dövrünə keçidlə bağlı 297 saylı tam orta məktəbin qazanxanasında təmir işlərinin aparılmasıdır. Yanvarın 15-dən məktəbin qazanxanasında elektrik şitində yaranmış problemlə əlaqədar müvafiq qaydada müraciət olunub.

Problemin aradan qaldırılması üçün hazırda zəruri tədbirlər görülür. Qısa müddətdə məktəbin istilik təchizatında yaranmış problem aradan qaldırılacaq və tədris ocağı istiliklə təmin olunacaq" - deyə qurumdan bildirilib.

Binəqədi Rayon İcra Hakimiyyətinin ictimaiyyətlə əlaqələr şöbəsindən "Bakı-Xəbər"in sorğusuna cavab olaraq bildirdilər ki, məktəblər Bakı Şəhər üzrə Təhsil İdarəsinin nəzdindədir: "Məktəblər Təhsil İdarəsinin nəzdində olduğu üçün, məktəblərin istiliklə təmin olunması, eləcə də digər məsələlərə bu qurum baxır. Bizim də bu probemlə bağlı məlumatımız var, Bakı Şəhər üzrə Təhsil İdarəsi də olaydan xəbərdardır. Problemin hansı şəkildə həll olunması ilə bağlı qərarı Təhsil İdarəsi verir" - deyə bildirdilər.

Şöbədən, həmçinin, qeyd etdilər ki, problemin yaxın zamanda həllinə ümid edirlər.

Qeyd edək ki, bir qrup valideyn Nəsimi rayonu 266 saylı orta ümumtəhsil məktəbində də istilik sisteminin qənaətbəxş olmadığını, hətta bəzi sinifləri qızdırıcı ilə qızdırdığını bildirir.

**266 saylı orta məktəblə də əlaqə saxladıq. Məktəbdən bildirdilər ki, məktəbdə istilik sistemində yaranan problem həll olunub və artıq bu sahədə heç bir çətinlik yoxdur: "Məktəbimizin istilik sistemində probelm yaranmışdı. İstilik var idi, amma çox zəif idi, ona görə də sinifləri qızdırmaq çətin idi. İndi isə problem tam olaraq öz həllini tapıb" - deyə məktəbdən bildirdilər.**

***İradə SARIYEVA***

№ 11 (4142) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

23 YANVAR 2020-ci il

www.baki-xeber.com

# Virtual obyektlərə toxunmağa imkan verən virtual reallıq əlcəyi hazırlanıb




**Bundan əvvəl taktil əks-əlaqəyə malik "Teslasuit" adlı VR kostyum hazırlamış britaniyalı tərtibatçılar komandası öz yeni məhsulunu təqdim etməyə hazırlaşır.**

"Teslasuit Glove" adlandırılmış virtual reallıq əlcəyi istifadəçilərə virtual tekstur və obyektlərə "toxunmağa" kömək edəcək. "İctnews.az" bildirir ki, bu əlcəklər təlim, tibbi reabilitasiya proqramları, həmçinin digər ixtisaslaşdırılmış tətbiq növləri üçün xüsusi hazırlanıb. Məhsuldar virtual obyektlərlə qarşılıqlı əlaqə zamanı taktil hisslərin yaradılması üçün bir neçə müxtəlif texnologiya tətbiq edilib. Əlcək, həmçinin istifadəçinin əl hərəkətlərini tutmağa, onun nəbzini və başqa biometrik məlumatları qeydə almağa imkan verir. Cihaz "Wi-Fi" vasitəsilə britaniyalılar tərəfindən hazırlanmış kostyuma qoşularaq onunla işləyir və virtual dünyaya tam daxilolmanı təmin edir. Əlcəyə hər barmaqda 9 ədəd olmaqla elektrodlar quraşdırılıb. Məhz bu elektrodlar sayəsində obyektlərə real toxunuş hissi yaradılır.

## Ona ərə gəlmək istəyən 300 qadına "yox" deyən kişi...

**Pakistanın şimalında yerləşən Mərdan şəhərində yaşayan 444 kiloqramlıq Ərbab Xizer Həyat ölkəsində "Hulk" adı ilə tanınır.**



"Haberler" xəbər verir ki, boyunun uzunluğu 1 metr 97 santimetr olan Ərbabın hazırda 27 yaşı var. Ailə qurmağa hazırlaşan Ərbab mətbuat nümayəndələrinə açıqlamasında bildirib ki, bu vaxta qədər ona ərə gəlmək istəyən 300 qadına "yox" deyib. "Ailə quracağım qadın ən azı 100 kiloqram olmalıdı ki, yan-yanaykən yaxşı görünək. Boyu da 1 metr 92 santimetrdən uzun olsun", - Ərbab bildirib. Qeyd edək ki, Ərbab hər səhər 36 yumurtadan hazırlanmış qayğanaq və 3 kq ətdən hazırlanmış xörək yeyir, 2 kq balı "desert" kimi həzm edir, 11 litr süd içir.

## Elan

Əliyev Elşən Mirkamil oğlunun adına, Bakı şəhəri, Biləcəri qəsəbəsi, məhəllə 5057/68, ev 11, mənzil 116 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gülbalayeva Gülzar Rüfət qızına Azərbaycan Dövlət Rəssamlıq Akademiyası tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Rəhimov Əzizbala Zəki oğlunun adına, Xızı rayonu Qızılqazma kəndində yerləşən torpaq sahəsinə verilmiş şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Rəhimova Tubu Seyfəddin qızının adına, Xızı rayonu, Qızılqazma kəndində yerləşən torpaq sahəsinin çıxarışı və texniki pasport itdiyi üçün etibarsız sayılır.

## İnternetdə yeni fırıldaqçılıq aşkarlanıb

**"Kaspersky Lab"ın mütəxəssisləri internetdə yeni fırıldaq sxemini aşkarlayıblar. "Milli.Az" xəbər verir ki, bu haqda "Kaspersky Lab" şirkətinin mətbuat xidməti məlumat yayıb.**

Məlumata görə, fırıldaqçılar özlərini fərdi məlumatların müdafiəsi fondunun nümayəndələri kimi təqdim edərək, fərdi məlumatları ələ keçirir və bundan pul qazanırlar. Onlar bu fondun ABŞ Federal Ticarət Komissiyası tərəfindən yaradıldığını bildirirlər. Özlərinə feyk sayt yaradan kibercinayətkarlar internet istifadəçilərinə fərdi məlumatların oğurlanmasına görə kompensasiya ödəyəcəklərini deyirlər. Sözügedən cinayət halı daha çox Rusiya, Əlcəzair, Misir və Birləşmiş Ərəb Əmirliklərində və s. ölkələrdə qeydə alınıb. Cinayətkarlar internet istifadəçilərindən məlumatlarının oğurlanıb-oğurlanmadığını yoxlamaq adı ilə bir sıra şəxsi informasiya alırlar. Bura ad, soyad, telefon nömrəsi və sosial şəbəkələrin linki daxildir. İnformasiyaları aldıqdan sonra isə istifadəçiyə fərdi məlumatlarında boşluq aşkarlandığını bildirərək, onlara kompensasiya ödəniləcəyini deyirlər. Kompensasiyanı almaları üçün isə sosial sığorta nömrələrini istəyirlər. Sonra o nömrənin bazada görünmədiyini deyərək, müvəqqəti olaraq 9 dollara yeni nömrə almağı təklif edirlər. Şirkət mütəxəssisləri bu kimi təkliflərə skeptik yanaşmanı tövsiyə edir. Eyni zamanda, etibarlı sayt və tətbiqlərdən istifadə etməyi məsləhət görürlər.

## Robotların fəaliyyət göstərdiyi restoranlar iflasa uğrayır

**Silikon Vadisinin ön cəbhədə olduğu və yalnız robotların işlədiyi bəzi restoran və kafelərdə işlər gözlənildiyi kimi getmir.**

İşçi qüvvəsini ucuzlaşdırmaq istəyən müəssisələrin üstünlük verdiyi robotlar müəssisələri xilas etmək üçün kifayət etmir. "Ted.az" bildirir ki, robotların pizza ilə xidmət etdiyi "Zume" restoranı bir neçə gün əvvəl bazardan çəkildiyini elan edib. Robotların tətbiqi müştərilər üçün cəlbedici olmadığı aşkarlanıb. Başqa sözlə, bir tərəfdən xərcləri azaltmağa çalışarkən, digər tərəfdən insanları cəlb edəcək effekti yarada bilmirlər. Gələcəkdə intensiv şəkildə müzakirə ediləcəyi gözlənilən robot işçisi mübahisəsi ilə əlaqədar olaraq iqtisadçılar da fikir ayrılığındadır. Birinci qrup robotlarla investisiya etmək üçün kifayət qədər böyük bir gəlir təmin etmir. Digər qrup müştərilər isə bir insanla görüşmək istəyirlər və qida xidməti üçün robotları uyğun görmürlər. Başqa sözlə, insan münasibətlərindəki insani istiliyi robotlar əvəz edə bilməzlər.





**Qoç** - Uğursuz gündür. Emosional fon sabit deyil, bir çoxları aqressiv davranışa meyllidirlər. Hisslərini cilovlamağa yalnız kənar tendensiyaların təsirinə qeyri-həssas adamlar nail olacaqlar.



**Buğa** - Əlverişsiz mərhələ davam edir. Mənfi tendensiyaların təsirini yumşaltmağın yolları barədə düşünməyin vaxtıdır. Ulduzlar cari işlərdən daha qlobal məsələlərə keçməyi məsləhət görürlər.



**Əkizlər** - Elə bir təklif almağınız mümkündür ki, onu qəbul etməklə həyatanınız köklü şəkildə dəyişə bilər. Bu, bir çox Əkizlər üçün dalandan çıxış yolu olacaq. İntuisiyanıza yox, sağlam düşüncəyə üstünlük verməyiniz tövsiyə olunur.



**Xərçəng** - Ən yaxşısı, bu gün yeni nəyəsə başlamamaqdır. Əgər işlər təxirə salınmamalıdırsa, çox ehtiyatlı olun. Bu gün ətrafdakılarla fikir ayrılıqları yarana bilər. Həyatdan narazılıq sizi düşünülməmiş addımlara vadar edə bilər.



**Şir** - Neqativ tendensiyalar güclüdür. İnsanlar qeyri-obyektiv mülahizələrə, səbirsizliyə və hövsələsizliyə meyllidirlər. Sağlam düşüncəyə zidd olsa belə, hər kəs öz mövqeyində israr etməyə çalışır.



**Qız** - Bütün qarşıdurma və münaqişələr kəskinləşəcək, ailə münasibətləri korlanacaq. Maliyyə mənzərəsi əlverişsizdir. Bu gün sövdələşmələrə getmək, iri bazarlıqlar etmək tövsiyə olunmur.



**Tərəzi** - Gün çox sakit keçəcək. Gözlənilməzliklər planlarınızı pozmayacaq. Çoxdandır əliniz qalxmayan işlərlə məşğul ola bilərsiniz. Dostların əhatəsində istirahət sevinc bəxş edəcək.



**Əqrəb** - İnadkarlıq nümayiş etdirməklə istədiyiniz hər şeyə nail ola bilərsiniz. Bir çox Əqrəbləri bu gün şəxsi xarakterli xoş sürprizlər gözləyir. Bürcün bir sıra nümayəndələri evlənməyə qərar verəcəklər və buna görə peşman olmayacaqlar.



**Oxatan** - Sövdələşmələr və kommersiya fəaliyyəti üçün əlverişli gündür. Qadınlarla işləmək tövsiyə olunur: onlarla razılığa gəlmək daha asandır. Gün istənlən irimiqyaslı layihələr, o cümlədən başqa yerə köçmək və ya tikinti üçün münasibdir.



**Oğlaq** - Özünüzü qoruyun. Bu gün xəsarət və xəstəlik təhlükəsi var, xroniki xəstəliklərin kəskinləşməsi mümkündür. Əsassız xərclərdən uzaq durun. Tezliklə, pul sizin üçün daha vacib və gərəkli şeylərə lazım olacaq.



**Dolça** - Uğursuz gündür. Siz öz ambisiyalarınız və xırda arzularınıza uyğun hərəkət edirsiniz. Bir çox Dolçalar sonradan peşman olacaqları hərəkətlərə yol verəcəklər. Sizin üçün şirnikdirici şeylərə müqavimət göstərmək çətindir.



**Balıqlar** - Asanından tutmuş çətininə qədər müxtəlif məsələlərin həlli üçün əlverişli gündür. Bütün çətinliklərin öhdəsində gələ biləcəksiniz. Üstəlik, seçdiyiniz üsullar səy tələb etməyəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Xiaomi" şirkəti "ağıllı" kondisioneri təqdim edib

**"Xiaomi" şirkəti "ağıllı" "Smartmi Kondisioner A" kondisionerini təqdim edib. İstifadəçilərin temperaturu tənzimləmək üçün sadəcə bir səs əmrini söyləməsi kifayətdir. Kondisionerin əsas üstünlüklərindən biri yüksək enerji səmərəliliyinə malik olmasındadır.**

"Techland.az" bildirir ki, istehsalçılar "Smartmi Kondisioner A"nın hazırkı enerji səmərəliliyinin müasir standartları üstələdiyini qeyd edirlər. Kondisioner 4.65 APF dəyərinə malikdir. APF yüksək olarsa, cihazın enerji səmərəliliyi də artır. Yeni "Xiaomi" cihazı digər kondisionerlərə nisbətən elektrik enerjisinə 20% qənaət edir. "Ağıllı" kondisioner həm tətbiqetmə, həm də səsli idarəetmə ilə işləyə bilər. Cihaz "Xiao AI" rəqəmsal köməkçisini dəstəkləyir. "Smartmi Kondisioner A"nın iki modeli mövcuddur. Onlar ölçülərinə və satış qiymətlərinə görə bir-birindən fərqlənirlər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks:
*510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.